## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİ İLƏ GÖRÜŞÜB

Fevralın 27-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Gürcüstan Prezidenti Salome Zurabişvilini Azərbaycanda görməkdən məmnunluğunu bildirən Birinci vitse-prezident Mehriban Əliyeva bu səfərin dost ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib...



Bax səh. 3

## HEYDƏR ƏLİYEV FONDUNUN VİTSE-PREZİDENTİ LEYLA ƏLİYEVA SURAXANI RAYONUNDAKI 2 SAYLI UŞAQ EVİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞÜB

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Suraxanı rayonundakı 2 saylı uşaq evində olub. AZƏRTAC xəbər verir ki, əvvəlcə Leyla Əliyeva uşaq evinin yeni idman meydançasında yaradılan şəraitlə tanış olub. İdman meydançası Heydər Əliyev Fondunun təşəbbüsü və Çinin Azərbaycandakı səfirliyinin dəstəyi ilə inşa edilib. Burada müxtəlif idman qurğuları quraşdırılıb, azyaşlılar üçün futbol və basketbol meydançası yenidən yaradılıb...



Bax səh. 5




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 28 fevral 2019-cu il, cümə axşamı / № 040 (5415). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev: Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir



*Gürcüstanın Prezidenti Salome Zurabişvili Azərbaycana rəsmi səfər edib*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Dominikan Respublikasının Prezidenti Danilo Medinaya təbrik məktubu göndərib.

### Heydər Əliyev Fondunun dəstəyi ilə daha bir qrup Qarabağ müharibəsi əlili protezlərlə təmin olunub

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, yaralanmış hərbçilərin yüksək texnologiyalı protezlərlə təmin olunması proqramı çərçivəsində daha bir qrup Qarabağ müharibəsi əlili protezləşməyə cəlb edilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fonduna müraciət edən 30-dək hərbçinin hər birinin fərdi xüsusiyyətləri, aktivlik dərəcələri, həyat tərzləri nəzərə alınmaqla yüksək texnologiyalı məhsullar seçilib. Tətbiq olunan protezlərin texniki imkanları normal həyat dinamikasına imkan yaradır, istifadəçi daha rahat...

Bax səh. 5

### Azərbaycanın Baş naziri və Gürcüstanın Prezidenti birgə işçi nahar ediblər

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov və ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də birgə işçi nahar ediblər. AZƏRTAC xəbər verir ki, səmimi söhbət zamanı...



Bax səh. 3

### Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub. AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya müəssisə barədə məlumat verilib. Bildirilib ki, 1944-cü ildən fəaliyyət göstərən institut hazırda üç hissədən ibarətdir: klinika, mərkəzi qan bankı və elm bölməsi. Klinikanın tərkibinə böyüklər üçün iki hematoloji şöbə, uşaq hematologiyası...

Bax səh. 5



## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA

Gürcüstanın Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Gürcüstanın Prezidenti Salome Zurabişvilini Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Nadir Hüseynov və digər rəsmi şəxslər qarşılayıblar.

## PREZİDENT İLHAM ƏLİYEVİN "ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" SƏRƏNCAMI İLƏ SOSİAL MÜDAFİƏ TƏDBİRLƏRİNİN ƏHATƏ DAİRƏSİ DAHA DA GENİŞLƏNDİRİLDİ

Azərbaycanda dinamik inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin milli gücünün artmasını təmin edib. Ölkəmizin davamlı inkişafından, iqtisadi potensialın mütəmadi surətdə genişlənməsindən bütün respublika boyu sosial infrastruktur yaradılması, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması, maddi təminatlarının möhkəmləndirilməsi məqsədilə səmərəli şəkildə istifadə olunur. Ümumiyyətlə, sosial sahədə ardıcıl olaraq həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının daha da yaxşılaşdırılması, vətəndaşların hərtərəfli qayğı ilə əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir. Bu məqamda qeyd etmək yerinə düşər ki...

Bax səh. 7



## GÜRCÜSTAN PREZİDENTİ: REGİONDA İLK SƏFƏRİMİ AZƏRBAYCANA ETDİYİMƏ GÖRƏ ÇOX ŞADAM

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov fevralın 27-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşüb. AZƏRTAC xəbər verir ki...

Bax səh. 3

### Gürcüstan Prezidenti Salome Zurabişvili AZƏRTAC-a və AzTV-yə məxsusi müsahibə verib

...Mükəmməl, mükəmməl, mükəmməl. Münasibətlərimiz tarixən mükəmməl olub. Çünki biz bu regionda olan və oxşar tarixi yaşayan iki ölkəyik. Eyni çətinliklərlə üzləşmişik, bir-birimizlə problemimiz olmadan...



Bax səh. 4

### Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Məhkəmə-Hüquq Şurasından AZƏRTAC-a bildiriblər ki, iclasda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ötən il...



Bax səh. 4

### Hacıqabulda "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb

Fevralın 27-də Hacıqabulda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Hacıqabul Rayon İcra Hakimiyyətinin...



Bax səh. 6

### Qaraçay-Çərkəz Respublikasında Qafqaz Xalqları Ali Dini Şurasının növbəti iclası keçirilib

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə fevralın 27-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasında...



Bax səh. 6

### Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş olub

Fevralın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Qulamrza Süleymaninin...



Bax səh. 6

# Prezident İlham Əliyev: Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir

## *Gürcüstanın Prezidenti Salome Zurabişvili Azərbaycana rəsmi səfər edib*



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Gürcüstanın Prezidenti xanım Salome Zurabişvilinin fevralın 27-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Gürcüstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti Salome Zurabişvilini qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Gürcüstan Prezidentinə raport verib.

Prezident İlham Əliyev və Prezident Salome Zurabişvili fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Gürcüstan Prezidenti Azərbaycan əsgərlərini salamlayıb.

Gürcüstanın və Azərbaycanın dövlət himnləri səslənib.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Salome Zurabişviliyə, Gürcüstanın nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Salome Zurabişvilinin qarşısından keçib.

Prezidentlər rəsmi foto çəkdiriblər.

* * *

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin təkbətək görüşü olub.

Prezidentlər görüşdə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev deyib: **"Hörmətli xanım Prezident, mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz.**

**İlk növbədə, bu yaxınlarda prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm, Sizə uğurlar arzulayıram.**

**Əminəm ki, Sizin səfəriniz Gürcüstan-Azərbaycan dostluq əlaqələrinin inkişafı üçün çox önəmli addım olacaqdır. Əminəm, aparacağımız müzakirələr bir daha təsdiqləyəcək ki, Gürcüstan və Azərbaycan bir-birinə çox yaxın ölkələrdir və birgə apardığımız işlər böyük nəticələr verir.**

**Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq gündən-günə dərinləşir. Siyasət, iqtisadiyyat, mədəniyyət, nəqliyyat, energetika sahələrində çox gözəl nəticələr var. Əslində, elə bir sahə tapmaq çətindir ki, biz o sahədə əməkdaşlıq etməyək. Əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bizim çox aydın fikirlərimiz var. Əminəm ki, səfər zamanı biz gələcək əməkdaşlıq istiqamətlərini müzakirə edəcəyik.**

**Bir daha xoş gəlmisiniz".**

Gürcüstan Prezidenti Salome Zurabişvili deyib: **"Təşəkkür edirəm cənab Prezident.**

**Şadam ki, regiona ilk səfərimi bizim dostumuz olan qardaş ölkəyə edirəm. Mən Azərbaycana dost ölkənin Prezidenti kimi səfərə gəlmişəm. Gürcüstanın bütün prezidentləri Azərbaycanın dostu olub və mən də bu ənənəni davam etdirirəm. Bizim münasibətlərimizin alternativi yoxdur və perspektivli əlaqələrimiz var.**

**Bizim region üçün və dünya üçün yeni perspektivlər açılır. Bu baxımdan əlaqələrimizi dərinləşdirmək daha da böyük əhəmiyyət kəsb edir. Əminəm ki, biz perspektivlərlə bağlı yeni təşəbbüsləri müzakirə edəcəyik.**

**Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm".**

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Prezidentlər görüşdə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev deyib: **"Hörmətli xanım Prezident, hörmətli qonaqlar, sizi bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.**

**Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Mən xanım Prezidenti prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etdim. Çox şadam ki, qısa müddətdən sonra xanım Prezident Azərbaycana səfər edir. Bu, çox gözəl göstəricidir.**

**Bu gün biz artıq təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik. Regional problemləri, bizim ikitərəfli və çoxtərəfli əməkdaşlığımızı müzakirə etdik. Bir daha gördük ki, bütün məsələlərlə bağlı bizim fikirlərimiz üst-üstə düşür. Əminəm ki, bu səfər Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli addım olacaqdır. Biz bu günə qədər bir çox məsələləri birlikdə həll etmişik. Gürcüstan və Azərbaycan yaxın dost, qardaş ölkələrdir. Biz əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamışıq və bu gün uğurla inkişaf edirik. Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yəni, biz çox uğurlu əməkdaşlıq formatı yarada bildik. Əminəm ki, növbəti illərdə bütün sahələr üzrə əməkdaşlıq daha da dərinləşəcək və genişlənəcək. Bunu bizim siyasi iradəmiz diktə edir. Əminəm ki, biz bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizə dəstək göstərəcəyik, necə ki, bu günə qədər bütün məsələlərdə həmişə bir yerdə olmuşuq.**

**Biz bu gün artıq həm xarici siyasət məsələlərini, həm də regiondakı vəziyyəti, bizim nəqliyyat, enerji layihələrinin icrasını müzakirə etdik. Əlbəttə ki, indi bu məsələləri geniş tərkibdə, daha geniş formada müzakirə edəcəyik. Əminəm ki, bu səfərin nəticələri çox müsbət olacaq və bizim əməkdaşlığımıza yeni töhfə verəcək.**

**Bir daha xoş gəlmisiniz".**

Gürcüstan Prezidenti Salome Zurabişvili deyib: **"Cənab Prezident, təşəkkür edirəm. Şadam ki, Azərbaycana gəlmişəm. Bu, mənim regionda birinci səfərimdir. Bizim qonşu və dost ölkə Azərbaycanda olmaqdan məmnunluq duyuram. Bizim əməkdaşlığımız bizim üçün çox əhəmiyyətlidir. İlk növbədə, bizi böyük tarix, ənənələr birləşdirir. Biz 100 il əvvəl birlikdə müasir dövlət qurmağa başladıq. Biz müstəqilliyimizi bərpa etdik. Vaxtilə bizim kiçik federasiyamız da var idi. Biz müstəqilliyimizi birlikdə itirdik, ağır illərdən keçdik, yaşadıq. Bunlar bizim dövlət quruculuğumuza təsir etdi. Biz öz müstəqilliyimizi yenidən birlikdə bərpa etdik. Biz son illər eyni faciələri yaşadıq. Bu gün də biz ölkə üçün ərazilərin işğalının nə demək olduğunu yaşayırıq. Ərazi bütövlüyü hələ bərpa olunmayıb. İşğal məsələsi bizim üçün hələ də açıq yara kimi qalır. Bu, bir tərəfdən bizim inkişafımıza mane olur, digər tərəfdən biz bunlara, bu faciələrə baxmayaraq, dövlətimizi, iqtisadiyyatı gücləndirməyə nail olduq. Bizim yolumuz müstəqillik yoludur və belə də davam edəcəyik. Bunlar böyük uğurlardır.**

**Şadam ki, buradayam. Çünki bizim həm keçmiş, həm də gələcək haqqında çox söhbətlərimiz var. Bizim regionumuz çox böyük perspektivlərə malikdir".**

Geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti xanım Salome Zurabişvili mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edib: **"Hörmətli xanım Prezident.**

**Hörmətli qonaqlar, xanımlar və cənablar.**

**İlk növbədə, xanım Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.**

**Sizi bu yaxınlarda prezident seçkilərində qazandığınız qələbə münasibətilə bir daha təbrik edirəm. Çox şadam ki, seçkilərdən qısa müddətdən sonra Siz Azərbaycana səfər edirsiniz. Bu, onu göstərir ki, Siz ölkələrimizin əlaqələrinə çox böyük önəm verirsiniz. Biz də Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Çox şadıq ki, bu əlaqələr uğurla, sürətlə inkişaf edir. Bugünkü səfər və apardığımız müzakirələr, danışıqlar bir daha onu təsdiqləyir ki, bizim əlaqələrimizin çox gözəl gələcəyi vardır.**





**Xalqlarımız əsrlər boyu bir-birinin yanında olmuşdur, bir yerdə olmuşdur. Biz həmişə dostluq, qardaşlıq şəraitində yaşamışıq. Bu gün də dostluq və qardaşlıq əlaqələrimiz bizim dövlətlərarası əlaqələrimiz üçün əsas amildir. Biz dövlətlərarası əlaqələri bu möhkəm təməl üzərində qururuq. Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir.**

**Bizim siyasi əlaqələrimiz yüksək səviyyədədir, müntəzəm olaraq yüksək səviyyəli görüşlər keçirilir, məsləhətləşmələr aparılır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi daim dəstəkləyirik. Gürcüstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda ərazi bütövlüyü məsələləri ilə bağlı daim həmrəylik göstərir və bir-birini dəstəkləyir.**

**Əlbəttə ki, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Bu gün bu məsələlər də geniş müzakirə olundu. Bildirməliyəm ki, bu əməkdaşlığın böyük tarixi var və biz birgə səylərlə çox önəmli böyük layihələri icra edə bilmişik. Əgər tarixə bir qədər nəzər salsaq görərik ki, hələ 1990-cı illərin sonlarında Bakı-Supsa neft kəmərinin tikintisi böyük hadisə idi. Bu, imkan verdi ki, Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşsin. Ondan sonra əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikildi. Bütün bunları, biz, yəni, üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə birgə səylərlə həyata keçirdik. Bu gün bu layihələr bizim iqtisadi inkişafımızı böyük dərəcədə artırır. Bu marşrut üzrə bu gün Cənub Qaz Dəhlizi layihəsi uğurla icra edilir. Bu, bölgədə ən böyük infrastruktur layihəsidir. Cənub Qaz Dəhlizinin reallaşmasına az vaxt qalıb. Keçən il bu layihənin icrası ilə bağlı çox önəmli il olmuşdur. Keçən il Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi olmuşdur və onun əsas hissəsini təşkil edən TANAP layihəsi də istifadəyə verilmişdir. Artıq TANAP xətti ilə qazın nəqli təmin edilir. Bu layihələr ölkələrimiz üçün, bölgə üçün böyük əhəmiyyət daşıyır, geniş mənada əməkdaşlığı dərinləşdirir. Əgər layihələrin əvvəlində üç ölkə əməkdaşlıq edirdisə, bu gün bu ölkələrin sayı böyük dərəcədə genişlənir və yeni tərəfdaşlar bu layihələrə cəlb edilir.**

**Biz bu gün, eyni zamanda, nəqliyyat sahəsində əməkdaşlığa böyük diqqət göstəririk və bu da danışıqların mövzusu olub. Bu layihələr də ölkələrimizə çox böyük fayda gətirir. İlyarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı nəticəsində indi ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artır və artacaqdır. Biz hələ bu layihənin icrasının birinci mərhələsindəyik, ancaq artıq bunun faydasını görürük və artan yükdaşımalar deməyə əsas verir ki, biz düzgün yoldayıq. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışından sonra Azərbaycan öz qonşuları ilə, Xəzərin şərq hissəsində yerləşən ölkələrlə çox fəal danışıqlar aparmışdır, razılığa gəlinmişdir. Əminəm ki, bu razılıq əsasında indi yükdaşımalar böyük dərəcədə artacaqdır. Bu, bizim ümumi layihəmizdir. Bu yeni dəhliz imkan verəcək ki, qitələr birləşsin. Yenə də burada Azərbaycan, Gürcüstan və Türkiyə - ənənəvi üçtərəfli əməkdaşlıq formatı əsas rol oynamışdır, indi isə əməkdaşlıq edən ölkələrin sayı artır.**

**Əlbəttə ki, bu gün bütün başqa məsələlərlə, o cümlədən humanitar, mədəniyyət, təhsil və turizm sahələrində əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi aparıldı.**

**Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrimizin inkişafı üçün çox önəmli rol oynayırlar. Gürcüstan və Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Bu, bizim böyük sərvətimizdir. Ölkələrimizdə yaşayan bütün xalqların nümayəndələri özlərini çox rahat hiss edirlər. Bu, ölkələrimizin bugünkü və gələcək inkişafı üçün çox önəmli amildir.**

**Şadam ki, xanım Prezident Azərbaycanın şimal-qərb bölgəsinə səfər edəcək, orada yerli vətəndaşlarla görüşəcək, o cümlədən gürcü əsilli vətəndaşlarla. Bu, əlbəttə ki, onlar üçün də çox mühüm hadisə olacaq. Əminəm ki, orada yaşayan digər xalqların nümayəndələri də buna çox sevinəcəklər. Eyni zamanda, ölkəmizin gözəl guşəsi ilə tanışlıq əminəm ki, Sizdə xoş təəssürat yaradacaqdır.**

**Bir sözlə, deyə bilərəm ki, bizim bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə güclü siyasi iradə var. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik. Əminəm ki, xalqlarımızın, dövlətlərimizin çox gözəl gələcəyi var. Bugünkü rəsmi səfər bizim əlaqələrimiz üçün çox böyük əhəmiyyət daşıyır.**

**Bir daha, hörmətli xanım Prezident, Sizi səmimiyyətlə salamlayıram. Sağ olun".**

Sonra Gürcüstan Prezidenti Salome Zurabişvili bəyanatla çıxış edib: **"Təşəkkür edirəm, cənab Prezident.**

**Sizin bütün fikirlərinizlə razıyam. Sizin fikirləriniz mənə çox yaxındır. Biz həqiqətən hər bir sahə üzrə fikir mübadiləsi apardıq. Biz bir yerdə tarixi yol keçmişik. Biz coğrafi cəhətdən də yaxın qonşularıq və tarix də bizi birləşdirir. Son əsrlər ərzində birlikdə uğurlu yollar keçdik, faciələrdən keçdik. Bilirik ki, dövlət quruculuğu nə deməkdir, nə tələb edir. Bütün bunlar bizi birləşdirir. Çünki biz bütün faciələri birlikdə yaşadıq və yenə də irəliləyişə, inkişafa, mədəniyyət sahəsində tərəqqiyə nail ola bildik. Hər bir məsələdə çox yaxınlıq və dostluq hiss edirəm.**

**Biz ötən əsrin sonu və bu əsrin əvvəlində birlikdə energetika sahəsində həqiqətən çox irimiqyaslı layihələr həyata keçirdik. Biz bütün dünyaya göstərdik ki, bu region mərkəzi regiondur, bu dəhliz sabit dəhlizdir və bu regiona böyük investisiyalar qoymaq olar. İndi qarşımızda duran əsas məqsəd daha böyükmiqyaslı layihələri gündəmə gətirməkdir.**

**Nəqliyyat dəhlizi çox vacibdir və həqiqətən bizim əməkdaşlığımızın təməl daşıdır. Nəqliyyat bugünkü dünyada çox potensiallı sahədir. Nəqliyyat sahəsi dünya üçün çox əhəmiyyətlidir. Asiyanın, Çinin və Avropanın birləşdirilməsi çox mühüm məsələdir və biz bu yolla gedirik. Bu, ən qısa yoldur, lakin biz hələ bu yolun imkanlarını tam inkişaf etdirməmişik və bu, bizdən asılıdır. Siz Azərbaycan tərəfindən hansı işlərin görüldüyü barədə məlumat verdiniz. Siz Xəzər dənizi ilə bağlı əldə olunmuş razılaşmaları qeyd etdiniz. Bu dənizdə nəqliyyat tam inkişaf etdirilməlidir. Avropa İttifaqının dəstəyi ilə biz Qara dənizdəki imkanlar üzərində işləyirik. Rumıniya, Bolqarıstan və Gürcüstan limanları arasında əlaqələri və logistikanı Avropa İttifaqının dəstəyi ilə inkişaf etdirmək istəyirik. Biz bu istiqamətdə də ümumi investisiyalar cəlb etməyə hazırıq. Biz Azərbaycanla birlikdə bu imkanlardan sona qədər istifadə etməliyik. Bizim Çinlə, eyni zamanda, Avropa İttifaqı ilə azad ticarət sazişimiz var.**

**Cənab Prezidenti Batumi konfransına dəvət etdim. Bu, bizim tərəfdaşlığımızın və Avropa İttifaqının 10 illiyi konfransı olacaq. Yəqin ki, nəqliyyat məsələsi burada əsas mövzu olacaq və biz birgə baxışlarımızı nümayiş etdirə bilərik. Cənab Prezident təklif etdi ki, bizim nümayəndələrimiz Çində də təqdimat keçirə bilərlər. Bunlar bugünkü potensialımızın reallığa çevrilməsi və perspektivlərimiz üçün çox vacibdir. Əminəm ki, bu, nəinki perspektivdir, bu, bizim sabahımız üçün əhəmiyyətlidir.**

**Lakin əlaqələrimiz bununla məhdudlaşmır. Biz insan əlaqələrinə, mədəniyyətə, təhsilə böyük əhəmiyyət veririk və bu sahələr inkişaf etdirilməlidir. Bu sahələrdə əlaqələr hələ tam lazımi səviyyədə deyildir. Hər iki tərəf bu məsələlərdə öz səylərini daha da fəallaşdırmalıdır. Biz istərdik ki, insani münasibətlər hər iki tərəfdən daha da fəallaşsın. Bu, bizim qərarlardan asılı olacaq. Biz istəyirik ki, Gürcüstanda Azərbaycan mədəniyyət günləri keçirilsin və Batumidə artıq planlaşdırılıb. Biz buna mütəmadi forma verməliyik və müxtəlif sahələrdəki əlaqələrimiz mədəniyyət sahəsində də fəallaşmalıdır.**

**Biz Gürcüstanın tolerantlığını UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etmək istərdik. Lakin bu, Qafqazda bizim ümumi dəyərimizdir. Biz buna Qafqaz xarakteri verə bilərik və bu, regionumuzdan dünyaya çox mühüm mesaj olacaq. Dünyanın bu dəyərlərə ehtiyacı var.**

**Bu gün turizmin inkişafı haqqında da fikir mübadiləsi apardıq. Turizm sahəsi də inkişaf etdirilməlidir. Bu məkan turistlər üçün tam açıq olmalıdır. Biz dostluğumuza əsaslanaraq belə qərara gəldik ki, delimitasiya komissiyasına öz işlərini yeniləmək və bu çalışmaları sona çatdırmaq üçün tapşırıq verək. Sərhəd də bizi birləşdirən amildir. Ümid edirəm ki, bu məsələ bizim dostluq əlaqələrimiz əsasında həll olunacaqdır.**

**Bütün bu sahələrdə əməkdaşlığa və bu səmimi qəbula görə cənab Prezidentə təşəkkür edirəm. İnanıram ki, bu, başlanğıcdır, yeni, daha sıx əlaqələrimizin başlanğıcıdır. Mən bu arzu və bu ümidlə çıxışımı bitirmək istərdim. Sağ olun".**

* * *

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti xanım Salome Zurabişvilinin şərəfinə rəsmi ziyafət verilib.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları rəsmi ziyafətdə çıxış ediblər.

Gürcüstan Prezidentini salamlayan Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək deyib: **"Hörmətli xanım Prezident.**

**Hörmətli qonaqlar, xanımlar və cənablar.**

**İlk növbədə, xanım Prezident, Sizi və rəhbərlik etdiyiniz Gürcüstan nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm.**

**Azərbaycan və Gürcüstan xalqları əsrlər boyu dostluq və mehriban qonşuluq şəraitində yaşamışlar. Müstəqillik qazandıqdan sonra ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq strateji tərəfdaşlıq xarakteri almışdır. Azərbaycan ilə Gürcüstan arasındakı siyasi, iqtisadi və humanitar əlaqələr ən yüksək səviyyədədir. Gürcüstanın Prezidenti vəzifəsinə seçildikdən sonra xanım Salome Zurabişvilinin xarici ölkələrə ilk səfərləri sırasında Azərbaycana rəsmi səfəri ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir".**

Ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev iqtisadi sahədə də yaxşı nailiyyətlərimizin olduğunu vurğulayaraq deyib: **"Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından və Gürcüstanda əsas investorlardan biridir. Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər sırasındadır. Birgə həyata keçirdiyimiz irimiqyaslı enerji layihələri - Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri enerji resurslarımızın nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması baxımından çox əhəmiyyətli hadisələrdir. Bu gün icra etdiyimiz irimiqyaslı transmilli Cənub Qaz Dəhlizi layihəsi ölkələrimiz üçün böyük əhəmiyyət daşıyır. Hazırda uğurla icra edilən bu layihənin dörd elementindən üçü - "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri və TANAP layihələri başa çatdırılmışdır. Əlbəttə ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əlaqələrimizdə də çox mühüm rol oynayır.**

**Mən xüsusilə nəqliyyat sahəsindəki əməkdaşlığımızı qeyd etmək istərdim. 2017-ci ildə açılışını etdiyimiz**

davamı 3-cü səhifədə

# Prezident İlham Əliyev: Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir

## *Gürcüstanın Prezidenti Salome Zurabişvili Azərbaycana rəsmi səfər edib*

əvvəli 2-ci səhifədə

**Bakı-Tbilisi-Qars dəmir yolu tarixi əhəmiyyətə malikdir. Qitələri birləşdirən bu dəmir yolu Azərbaycanın və Gürcüstanın tranzit potensialını böyük dərəcədə genişləndirir. Bu gün artıq Bakı-Tbilisi-Qars dəmir yolu ilə göndərilən yüklərin həcmində artım hiss olunmaqdadır".**

Ölkələrimizin beynəlxalq təşkilatlarda da sıx əməkdaşlıq etdiklərini bildirən Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstanın hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini də dəstəklədiklərini vurğulayaraq deyib: **"Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, ölkəmizin Dağlıq Qarabağ regionunun və ətraf yeddi rayonunun hərbi işğal altında saxlanması regional sülh və təhlükəsizliyə ciddi təhdiddir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası və Baş Məclisi, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, NATO, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qətnamə və qərarlarda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, münaqişənin məhz bu prinsiplər əsasında həllinə qəti dəstək ifadə olunmuşdur. Keçən il Azərbaycan və Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq Prioritetləri" sənədində də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı dəstəklənmişdir".**

Prezident İlham Əliyev ölkələrimiz arasında sıx əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyini bildirərək deyib: **"Bu gün ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişafı üçün digər sahələrdə də - turizm, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, elm, təhsil, mədəniyyət sahələrində də yaxşı imkanlar və perspektivlər mövcuddur.**

**Hörmətli xanım Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram, Sizə cansağlığı, işlərinizdə uğurlar, ölkənizə və xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram".**

Gürcüstan Prezidenti xanım Salome Zurabişvili çıxış edərək deyib: **"Cənab Prezident.**

**Hörmətli qonaqlar.**

**İcazə verin, səmimi qəbulunuz və qonaqpərvərliyiniz üçün Sizə minnətdarlığımı bildirim. Sizin bu cür qəbulunuz bizim millətlərə xas olan qonaqpərvərliyin sübutudur. Bu, Qafqaz mədəniyyətinin əlaməti və dəyişməz ənənəsidir.**

**Bugünkü səfər bir daha Gürcüstan ilə Azərbaycan arasında mövcud olan mehriban qonşuluq və dostluq münasibətlərini nümayiş etdirir.**

**Azərbaycanın böyük tarixi şəxsiyyətini - Əli bəy Hüseynzadəni xatırlamaq istərdim. O, Azərbaycanın "Türkləşmə, islamlaşma və avropalaşma" adlı dirçəliş proqramının müəllifidir.**



**Biz gürcülər üçün isə belə qəhrəman İlya Çavçavadzedir. O, "Vətən, dil, din" kəlamını bizim milli şüarımıza çevirərək avropalaşma ideyasını təbliğ edirdi.**

**Gürcülər və azərbaycanlılar azadlığa və dövlət quruculuğuna gedən yolu birlikdə keçiblər. Bu yol bu gün artıq bizim ümumi məqsədlərimizi müəyyən edir".**

Gürcüstan Prezidenti Salome Zurabişvili hazırda müstəqil ölkələrimizin qarşıda duran vəzifələrin həlli üçün ardıcıl iş gördüklərini vurğulayaraq deyib: **"Münaqişələr və ərazi bütövlüyünün pozulması hər iki ölkənin faciəsidir. Bu gün biz öz suverenliyimizin və ərazi bütövlüyümüzün tanınması və bərpası üçün BMT-dən UNESCO-ya qədər beynəlxalq təşkilatlarda birlikdə mübarizə aparırıq. Bu faciələrə baxmayaraq, biz müasir dövlətlər qurmağa, iqtisadiyyatı inkişaf etdirməyə və böyük layihələri icra etməyə nail olduq".**

Gürcüstan Prezidenti hazırda Azərbaycan, Gürcüstan və Türkiyənin böyük regional layihələrin uğurla reallaşdırılması üçün birgə səylərini davam etdirdiklərini bildirərək deyib: **"Bizim ölkələrimiz Asiya və Avropanı, Çini və Qərbi, Xəzər dənizini və Qara dənizi bir-birinə birləşdirən yollar üzərində yerləşirlər. Bu nəqliyyat dəhlizlərinə maraq gündən-günə artmaqdadır. Bu yolların maksimal dərəcədə yüklənməsi və lazımi dərəcədə əhəmiyyət kəsb etməsi üçün bizim regionda sabitliyin və sülhün qorunub saxlanılması olduqca vacib məsələdir. Hamımıza daha çox investisiya, tərəfdaş, turist, bazarlar lazımdır, bütün bunların hamısı isə bizim sabitliyimizdən asılıdır".**

Prezident Salome Zurabişvili Azərbaycan ilə Gürcüstanın mədəniyyət sahəsində də uğurla əməkdaşlıq etdiklərini vurğulayıb. Ölkələrimizin sənaye sahəsində də sıx əməkdaşlıq etdiklərini bildirən Gürcüstan Prezidenti deyib: **"Unutmayaq ki, neft sənayesinin tarixi bizim regionun əmin-amanlıq tarixidir. Onu yeni üslubda oxumaq və dünya üçün təqdim etmək millətlərimizə ancaq xeyir gətirəcək və yalnız münaqişələr prizmasında görünən regionumuz haqqında səhv təsəvvürləri dəyişəcəkdir.**

**Mədəniyyət və iqtisadiyyat sahələrində çoxlu layihələr mövcuddur, onlar ölkələrimizi, xalqlarımızı, gənclərimizi daha yaxın edə bilər".**

Prezident Salome Zurabişvili ölkələrimizin paytaxtları arasında da fəal mübadilələr aparıldığını qeyd edərək bildirib: **"Sizin ölkənizin ənənəvi əl işləri sənətkarlarını, rəssamları, bəstəkarları, yazıçıları tanıtmaq, aktual məsələlər haqqında forumlar keçirmək lazımdır. Məsələn, ətraf mühitin qorunması. Çünki Qafqazın bioloji cəhətdən şaxələnmiş flora və faunasını qorumaq məhz bizim öhdəmizə düşür. Bunun üçün həm beynəlxalq təşkilatlarda, həm dünya konfranslarında fəal olmalıyıq. Gənclərin bu istiqamətdə məsuliyyətini artırmaq, yeni yanaşmaları tətbiq etmək çox səmərəli birləşdirici amilə çevrilə bilər".**

Gürcüstan Prezidenti bildirib ki, ölkələrimizdə yaşayan etnik gürcülər və azərbaycanlılar bizi daha da yaxın edirlər. Prezident Salome Zurabişvili ölkələrimizin bundan sonra da qarşıda duran vəzifələrin həlli üçün səylərinin birləşdirməsinin vacibliyini vurğulayaraq deyib: **"Arzu edirəm ki, birgə səylərimizlə, böyük və yaxud kiçik qonşularımızın müsbət yanaşmaları ilə ölkələrimizin ərazi bütövlüyünə nail olaq. Mədəniyyətlərin və sivilizasiyaların ən maraqlı yol kəsişməsində yerləşən regionumuzda sülhün və sabitliyin möhkəmlənməsi əsas şərtdir. Dünya qarşısında onun nadirliyini qorumaq bizim borcumuzdur".**

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb



Fevralın 27-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti Salome Zurabişvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Gürcüstan Prezidenti Salome Zurabişvilini Azərbaycanda görməkdən məmnunluğunu bildirən Birinci vitse-prezident Mehriban Əliyeva bu səfərin dost ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Azərbaycana səfərindən şad olduğunu deyən Prezident Salome Zurabişvili burada keçirilən görüşlərin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətini qeyd edib.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələr üzrə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Gürcüstan Prezidenti: Regionda ilk səfərimi Azərbaycana etdiyimə görə çox şadam



Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov fevralın 27-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, ölkələrimiz arasında münasibətlərdən danışan Oqtay Əsədov Azərbaycan-Gürcüstan əlaqələrinin çox qədim tarixə malik olduğunu deyib. Parlamentin sədri bildirib ki, əsrlər boyu ölkələrimiz və xalqlarımız arasında mehriban qonşuluq münasibətləri olub. Bu münasibətlər o dərəcədə inkişaf edib ki, müstəqilliyimizi bərpa edəndən sonra əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Prezident Salome Zurabişvilinin bu səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyini vurğulayan Oqtay Əsədov Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə reallaşdırılan enerji və nəqliyyat layihələrinin əhəmiyyətindən danışıb.

Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişaf etdiyini deyən Milli Məclisin sədri bildirib ki, 2018-ci ildə ticarət dövriyyəmiz 580 milyon dollar olub. Biz şadıq ki, Azərbaycan Gürcüstanın ən böyük investorlarından biridir. Biz çoxlu sayda biznes forumlar keçirmişik ki, bunların da iqtisadiyyatımızın inkişafına böyük töhfələri var.

Oqtay Əsədov əlavə edib ki, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələri də yüksək səviyyədədir. Hər iki parlamentdə dostluq qrupları fəaliyyət göstərir. Sədr vurğulayıb ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü dəstəkləyir.

Gürcüstan Prezidenti Salome Zurabişvili Prezident kimi regionda ilk səfərini məhz Azərbaycana etdiyinə görə şad olduğunu deyib. Dövlət başçısı bildirib ki, Gürcüstan ilə Azərbaycanın dostluğunun qədim tarixi var. Əsrlər boyu mövcud olan dostluq əlaqələrimiz indi də davam edir. 2018-ci ildə ölkələrimiz müstəqilliyinin 100 illiyini qeyd etdi. Ancaq bu yüz ildə xalqlarımız çoxlu faciələr də yaşayıb. Dost ölkələrimiz müstəqilliyini yenidən bərpa edərək onu daha da möhkəmləndirib. İndi bizim güclü ölkələrimiz var.

Gürcüstan Prezidenti bildirib ki, parlamentlər səviyyəsində əlaqələrin daha da dərinləşməsi dövlətlərarası münasibətlərin inkişafına müsbət təsirini göstərir.

Prezident Salome Zurabişvili Azərbaycanın təşəbbüsü və liderliyi, Gürcüstanın fəal iştirakı ilə reallaşan enerji layihələrinin əhəmiyyətini xüsusi vurğulayıb. Qeyd edib ki, hər iki ölkənin əlverişli coğrafi mövqeyi nəzərdə tutulan proqramların həyata keçməsi üçün önəmli amillərdən biridir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Gürcüstan Prezidenti Salome Zurabişvili Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



Azərbaycanda rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Gürcüstan dövlətinin başçısı görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər güllər düzüb.

# Gürcüstan Prezidenti Şəhidlər xiyabanını ziyarət edib

Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident Salome Zurabişvili Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Gürcüstanın və Azərbaycanın dövlət himnləri səslənib.

Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr edən Gürcüstan Prezidentinə Şəhidlər xiyabanının tarixi və Bakıda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.



# Azərbaycanın Baş naziri və Gürcüstanın Prezidenti birgə işçi nahar ediblər



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov və ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də birgə işçi nahar ediblər.

AZƏRTAC xəbər verir ki, səmimi söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Gürcüstan Prezidenti Salome Zurabişvili AZƏRTAC-a və AzTV-yə məxsusi müsahibə verib



**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Gürcüstan Prezidenti Salome Zurabişvili fevralın 27-də Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC-a) və Azərbaycan Televiziyasına məxsusi müsahibə verib.**

**- Xanım Zurabişvili, ilk növbədə, Sizə minnətdarlığımızı ifadə etmək istəyirik. Bilirik ki, iş qrafikiniz gərgindir və bir daha təşəkkür edirik. İlk növbədə, ikitərəfli münasibətlərdən başlamaq istərdik. Siz Cənubi Qafqaz regionunun iki dost dövləti olan Azərbaycan və Gürcüstan arasındakı hazırkı ikitərəfli münasibətləri necə dəyərləndirirsiniz?**

- Mükəmməl, mükəmməl, mükəmməl. Münasibətlərimiz tarixən mükəmməl olub. Çünki biz bu regionda olan və oxşar tarixi yaşayan iki ölkəyik. Eyni çətinliklərlə üzləşmişik, bir-birimizlə problemimiz olmadan eyni iğtişaşları və bəzən eyni faciələri yaşamışıq. Əksinə, bu çətin, lakin maraqlı vaxtlarda bir-birimizə dəstək olaraq bir-birimizdən güc almışıq. Münasibətlərimiz ona görə mükəmməldir ki, yaxın tariximiz çox maraqlı olub və bu müddətdə biz bütün region üçün mühüm olan, lakin, eyni zamanda, regionla məhdudlaşmayan bir sıra layihələrə imza atmışıq.

Energetika sahəsi əməkdaşlığımızda mühüm yer tutur. Bu, çox uğurlu əməkdaşlıq olub. Heç kəsin buna inanmadığı halda, biz Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərini və digər layihələri reallaşdıra bildik. Bu, böyük bir uğur hekayəsidir. Artıq bu layihənin tərəfimizdən tamamlanması əməkdaşlığımızın bitdiyi anlamına gəlmir. Münasibətlərimiz həm də ona görə mükəmməldir ki, biz bu gün iki ölkə arasında yeni perspektivləri də müzakirə etdik. Bu perspektivlər iki ölkə sərhədlərindən kənara da çıxır. Çünki biz elə bir regionda yerləşirik ki, bir çox nəqliyyat və ticarət xətləri buradan keçir. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün bizim mövqelərimiz üst-üstə düşür. Mən həm Xəzər dənizini, həm Qara dənizi, həm də Şərq və Qərbi əhatə edən daha geniş coğrafiyanı nəzərdə tuturam. Bu, çox çətin, amma ümidverici bir layihədir. Düşünürəm ki, məhsuldar və dost münasibətlərimiz bizə bu kimi iddialı layihələrin öhdəsindən gəlmək imkanı verəcək. Hər iki ölkə çox iddialıdır.

**- Azərbaycan və Gürcüstan müxtəlif beynəlxalq təşkilatlarda və regional formatlarda fəal əməkdaşlıq edir. İki ölkə arasındakı siyasi əlaqələrin indiki səviyyəsi beynəlxalq müstəvidə mövqelərimizin dəstəklənməsində hansı rolu oynayır?**

- Biz beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizə dəstək olmuşuq, işğal edilmiş ərazilərlə, ərazi suverenliyi və bütövlüyü ilə bağlı qarşılıqlı mövqelərimizi dəstəkləmişik. Bir daha deyim ki, bu, bizim ortaq faciəmizdir. Lakin, eyni zamanda, ümid edirik ki, bir gün biz öz ərazi bütövlüyümüzü bərpa edə biləcəyik. Bu, bizim əhalimiz üçün, işğal olunmuş ərazilərin sərhədlərinin hər iki tərəfində yaşayan insanlar üçün çox ağrılı bir prosesdir. Lakin, bu, eyni zamanda, bizim ölkələr üçün çağırışdır. Biz çağırışı adladıq, ona müqavimət göstərdik və bütün bunlara baxmayaraq, bir-birimizə dəstək olmaqla iqtisadiyyatlarımızın inkişafına nail ola bildik, güclü və müstəqil dövlət qura bildik. Hər kəsin bu hadisələrin ölkələrimizə mənfi təsir göstərdiyini düşündüyü bir halda, biz uğurlu transformasiyanı apara bilmişik. Bu, bizim nəzarət etmədiyimiz uğur deyil. Bizim ərazi bütövlüyümüz məsələsi həmişə böyük problem olaraq qalmaqdadır. Lakin, eyni zamanda, bizim dövlətlərimiz bütün planlaşdırdıqlarına nail ola bilmişdir. Bir daha qeyd edirəm ki, biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləməyə davam edəcəyik. Lakin biz daha çoxunu edə bilərik. Biz nəinki bu iddiaları qarşılıqlı şəkildə dəstəkləyə bilərik, eyni zamanda, bu beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı şəkildə müsbət məsələləri də müdafiə edə bilərik. Bu məsələlərdən biri ətraf mühitin mühafizəsidir. Hər iki dövlət Qafqazın bir region kimi təqdim etdiyi sərvətləri qorumalıdır. Bu regionun florası və faunası bütün dünya üçün mühüm əhəmiyyət kəsb edir. Bu regionda biomüxtəlifliyin qorunması çox vacibdir. Hesab edirəm ki, beynəlxalq konfranslarda üzərimizə götürə biləcəyimiz bəzi mövqeləri paylaşmaqla biz daha çox iş görə bilərik və bu baxımdan eyni mövqeləri müdafiə etmək üçün daha güclü olmalıyıq.

**- Cənubi Qafqaz regionu həll olunmamış münaqişələrdən əziyyət çəkir. Azərbaycan və Gürcüstan bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Münaqişələrin beynəlxalq hüququn normaları çərçivəsində tənzimlənməsi üçün indiki imkanları necə qiymətləndirirsiniz?**

- Bugünkü perspektivlərin necə olması bizim əsas problemimizdir. Düşünürəm ki, bu gün sizin perspektivləriniz bizimkindən daha yaxşıdır. Çünki sizin irəliləyiş əldə edə bilməyiniz üçün bəzi əlamətlər var. Gürcüstanın Qafqazda hər iki ölkə ilə münasibətləri var. Əgər Gürcüstan rol oynaya bilsə biz hər zaman yardım etməyə hazırıq, çünki regionumuzda sülh bizim hamımız üçün olduqca vacibdir. Siz, həmçinin bilirsiniz ki, Gürcüstanda Gürcüstan vətəndaşları kimi yaşayan hər iki ölkədən olan insanlar var. Sülhün olması bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Biz hər zaman öz ərazimizdə bu xalqlar arasında sülhün saxlanılmasına müvəffəq olmuşuq. Hər zaman heç bir münaqişənin ölkəyə daxil olmamasına müvəffəq olmuşuq. Düşünürəm ki, bu, Gürcüstan üçün böyük əhəmiyyət kəsb edir. İrəliləyişi görmək və ona yardım etmək Gürcüstan üçün çox vacibdir. Bizim tərəfdəki münaqişəyə, işğal olunmuş ərazilərə gəlincə, orada hələ ki, işğal siyasətinə yenidən nəzər salmaq və ya getdikcə çox ağırlaşan bu siyasəti yumşaltmaq istiqamətində heç bir əlamət nümayiş etdirməyən güclü bir ölkə var. Biz hər gün insanlarla birgə sərhədlərin çəkildiyini görürük. Bu, çox mürəkkəb bir vəziyyətdir. Bizim əlimizdə çox imkan yoxdur, çünki diplomatik əlaqələrimiz mövcud deyil. Ona görə də, biz daha çox tərəfdaşlarımıza, Qərb tərəfdaşlarımıza arxalanırıq ki, bu məsələni rusların diqqətinə çatdırsınlar və onları öz öhdəliklərinə əməl etməyə çağırsınlar. Eyni ilə Azərbaycan da Rusiyaya belə bir mesaj verə bilər ki, qonşuları ilə sülh və qarşılıqlı hörmət münasibətlərinin olması Rusiyanın özü üçün daha yaxşı olar. Bütün region, bəlkə də Rusiya daha yaxşı yaşayar.

**- Xanım Prezident, Azərbaycan və Gürcüstan Cənubi Qafqaz və Xəzər hövzəsi regionunda həyata keçirilən bir çox layihələrdə yaxından iştirak edir. Siz ölkələrimizin energetika və nəqliyyat sahələrində həyata keçirilən birgə layihələrdə iştirakını və həmin layihələrin perspektivlərini necə görürsünüz?**

- Düşünürəm ki, qeyd etdiyim kimi perspektivlər mükəmməldir. Hazırda bu layihələrə bizim kənar qonşularımızın böyük marağı var. Bunlardan biri Avropa İttifaqıdır. İyulda Batumidə mühüm konfrans keçirəcəyik. Burada əsas diqqət Qara dənizin hər iki tərəfində böyük inkişafın imkanlarından biri kimi nəqliyyat məsələlərinə yönələcək. Bu mənada Xəzər dənizinin bir hissəsi çox mühümdür. Çünki biz nəqliyyat barədə danışırıqsa, bu o deməkdir ki, biz bütün dəhlizləri - orta dəhlizi və Qara dəniz boyunca dəhlizləri birləşdirməliyik. Düşünürəm ki, bu, XX əsrdəki Bakı-Tbilisi-Ceyhanın XXI əsrdəki ekvivalentidir. Hər ikisi inqilab və çox böyük inkişafdır. Düşünürəm ki, perspektivlər mükəmməldir, bütün tərəfdaşlarımızda - Türkmənistanda, Qazaxıstanda buna böyük maraq var. Xəzər dənizi ilə bağlı razılaşmanın əldə olunması çox yaxşı əlamətdir. Öz tərəfimizdən limanlarımız inkişaf etdirilir, biz üçüncüsünü inşa edirik. Qonşu ölkələrin Qara dənizin digər tərəfinə olan marağı da çox yüksəkdir. Beləliklə, perspektivlər yaxşıdır. Sözsüz ki, bunun üçün bizim regionda sabitliyə ehtiyacımız var. Ən vacibi budur. Bu gün sülh və sabitlik bizim əsas üstünlüyümüzdür, müsbət üstünlüyümüzdür. Biz bunu qoruyub saxlamalı və inkişaf etdirməliyik.

**- Xanım Zurabişvili, bu gün iki qonşu və dost dövlətin qeyri-enerji, xüsusən də turizm sahəsində əlaqələrini dərinləşdirmək üçün böyük potensial var. Sizcə, qeyri-enerji sahəsində prioritetlərimiz hansılar olmalıdır və bu məsələdə ikitərəfli əməkdaşlığın gələcəyini necə görürsünüz?**

- İkitərəfli əməkdaşlıq üçün imkanlar çox genişdir və hələ də kəşf etmədiyimiz sahələr çoxdur. Biz diqqəti əsasən enerji sahəsinə cəmləmişik. Lakin düşünürəm, mədəniyyət də bizim kimliyimizin, Qafqaz kimliyinin əsas tərkib hissəsidir. Hesab edirəm, cəmiyyətlər və mədəniyyətlər arasında mübadilə sahəsində hələ arzuolunan səviyyəyə çatmamışıq. Bu il biz Batumidə "Azərbaycan günləri" keçirməyi planlaşdırırıq. Bu, çox vacib tədbir olacaq. Tədbiri Tbilisidə də keçirməyi nəzərdə tuturuq. Bu məsələləri biz Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə müzakirə etmişik. O, mənim təklif etdiyim bəzi təşəbbüsləri, o cümlədən mədəniyyətlərarası mübadilələrlə bağlı təşəbbüsləri çox böyük maraqla qarşıladı. Həmçinin UNESCO kimi təşkilatlar çərçivəsində Qafqazın təmsilçiləri olaraq birgə təşəbbüslərimiz olsa, fəaliyyətimizi daha səmərəli təşkil edə bilərik. Hətta Ermənistanı da buraya əlavə edə bilərik. Çünki mədəniyyət elə bir sahədir ki, orada hər şey mümkündür. Mədəni kimliyimizi birgə inkişaf etdirməklə bağlı maraqlı perspektivlər də çoxdur. Turizm isə xalqlararası əlaqəni gücləndirməyin digər bir vasitəsidir. Bilirsiniz ki, Gürcüstanda turizmlə bağlı güclü inkişaf olub. Biz müxtəlif vasitələrlə bu inkişafı qonşu ölkələrlə bölüşə və beləliklə, Qafqazı bütün gözəlliklərin vəhdətdə olduğu bir yerə çevirə bilərik.

**- Ölkələrimiz arasında humanitar sahədə əlaqələrin daha da yüksək səviyyəyə çatdırılması üçün hər hansı layihələrin həyata keçirilməsi planlaşdırılırmı?**

- Bu, elə mənim dediyim məsələdir. Birbaşa mədəni mübadilələr çox vacibdir. Hər iki tərəf xalqlararası anlaşmanı gücləndirmək istiqamətində sərgilər, konsertlər və müxtəlif mədəni tədbirlər təşkil etməlidir. Biz, həmçinin tələbə mübadiləsi istiqamətində çox çalışmalıyıq, çünki bu sahədə istənilən səviyyəyə çatmamışıq. Biz kiçik bir regionda yaşayırıq. Uzun müddətdir ki, biz çox yaxın qonşularıq və dövlətlərimiz arasında dostluq münasibətləri mövcuddur. Təbii ki, cəmiyyətlərimiz arasında da bu münasibətlərin inkişafına çalışmalıyıq.

# Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.

Məhkəmə-Hüquq Şurasından AZƏRTAC-a bildiriblər ki, iclasda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ötən il görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək ötən il dahi öndər Heydər Əliyevin dövlət inkişafı kursunun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini, Azərbaycanda sabitliyin və hərtərəfli tərəqqinin təmin olunduğunu, dövlətimizin iqtisadi potensialının yüksəldiyini, o cümlədən Dünya Bankının "Doing Business 2019" hesabatında 32 pillə irəliləyərək dünyada 25-ci yer tutduğunu və ən islahatçı 10 dövlət sırasında olduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, ötən il məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması və işin keyfiyyətinin yüksəldilməsi üzrə ardıcıl tədbirlər görülüb.

Dövlətimizin başçısının tapşırığı ilə yaradılmış "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklər elektron sənəd dövriyyəsinin təmin edilməsinə, o cümlədən iddia ərizələrinin onlayn verilməsinə, məhkəmə rüsumlarının elektron ödənilməsinə, iş üzrə məlumat və qərarların alınmasının elektron həyata keçirilməsinə, məhkəmə iclaslarının audio-video yazılışının aparılmasına şərait yaradıb. Bu məqsədlə ölkə üzrə mövcud olan 111 məhkəmədən 60 faizi müasir İKT ilə təchiz edilib, bu sahədə işin tam yekunlaşması üzrə tədbirlər görülür.

Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə cəza siyasətinin humanistləşdirilməsi, o cümlədən bəzi əməllərin dekriminallaşdırılması ilə əlaqədar məhkəmələr tərəfindən 6 minə yaxın məhkum haqqında sənədlərə baxılaraq təmin edilib. 4200-dən çox şəxs cəzadan azad olunub, yaxud cəza müddətləri azaldılıb. Həbsə alternativ cəzaların tətbiqinin genişləndirilməsi məqsədilə elektron qolbaqların tətbiqinə başlanılıb və artıq 900-dən çox məhkuma elektron qolbaq tətbiq edilib.

Hakimlərin tədrisinin əhəmiyyəti nəzərə alınaraq Ədliyyə Akademiyası ilə birgə təşkil olunan təlimlərdə bütün hakim korpusu əhatə olunub, Avropa Konvensiyasının tətbiqi və presedent hüququ ilə bağlı məhkəmənin hakimi və təcrübəli ekspertlərin iştirakı ilə videokonfrans vasitəsilə distant təlimlərə başlanılıb.

Müasir məhkəmə infrastrukturunun yaradılması məqsədilə 2018-ci ildə Dünya Bankı ilə birgə layihələr çərçivəsində və dövlət büdcəsi hesabına Bakı şəhərinin Binəqədi və Zaqatala rayon məhkəmələri üçün yeni, müasir İKT-lərlə təchiz olunmuş məhkəmə binaları inşa edilərək istifadəyə verilib. Sumqayıt Məhkəmə Kompleksinin, Bakı şəhərinin Suraxanı, habelə Masallı rayon məhkəmələri üçün hazırda yeni inzibati binaların inşası aparılır.

Binəqədi rayon məhkəməsinin yeni binasının ölkə Prezidenti tərəfindən açılışının həyata keçirilməsi məhkəmə hakimiyyətinə diqqət və dövlət qayğısının təzahürü olub.

Ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə mütərəqqi islahatlarımız nüfuzlu beynəlxalq təsisatlar tərəfindən təqdir edilib.

Eyni zamanda, səlahiyyət müddəti başa çatan 80-dən çox hakimin fəaliyyəti ətraflı və prinsipial təhlillər aparılmaqla qiymətləndirilib, 16 nəfəri apellyasiya məhkəmələrinə irəli çəkilib, 61 nəfəri yenidən müxtəlif hakim vəzifəsinə təyin edilib. Yuxarı instansiya məhkəmələrində olan 30 vakansiya zəruri keyfiyyətlərə malik hakimlərlə tam komplektləşdirilib və



apellyasiya məhkəmələrinin sədr müavini və kollegiya sədrləri təyin olunub.

Bununla yanaşı məhkəmələrin iş yükü üzrə ətraflı təhlillər aparılmaqla ehtiyatda olan 50 hakim ştatı birinci instansiya məhkəmələri üzrə tam paylanılıb. Hakimlərin obyektiv seçimi nəticəsində 800-dən çox namizəddən 108 nəfər hüquqşünas çoxmərhələli imtahanları, bir il müddətində davam edən təlimləri və məhkəmələrdə, o cümlədən Türkiyədə və Avropa Məhkəməsində stajkeçməni uğurla başa vuraraq dövlət başçısı tərəfindən müxtəlif birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunub. Bununla da bütün hakim korpusunun 70 faizdən çoxunu yeni, mütərəqqi qaydalarla seçilmiş hakimlər təşkil edib. Həmçinin nəticədə məhkəmə sistemində mövcud vakansiyaların tam əksəriyyəti komplektləşib.

Həyata keçirilən qanunvericilik tədbirləri nəticəsində məhkəmələrdə baxılan işlərin sayı 20 faizədək azalıb. Bununla yanaşı, cari ildən əmr icraatları üzrə işlərə məhkəmədənkənar elektron qaydada baxılması, məhkəmə iclaslarının təyin edilməsi müddətlərinin dəqiqləşdirilməsi və təxirə salınması hallarının qanunla məhdudlaşdırılması, bəzi kateqoriya işlər üzrə sadələşdirilmiş icraatın təsbit olunması iş yükünün daha da azalmasına əsaslı zəmin yaradacaq. Bütün bunlar məhkəmələrdə süründürməçilik hallarının qarşısının alınmasına, işlərə vaxtında və keyfiyyətlə baxılmasına xidmət edəcək.

İclasda qeyd edilib ki, görülmüş tədbirlərə baxmayaraq, məhkəmə fəaliyyətində yol verilən nöqsanlar, xüsusilə korrupsiya, süründürməçilik, vəzifədən sui-istifadə halları tam aradan qaldırılmayıb.

Ölkə başçısının vətəndaşlara qayğılı münasibət göstərilməsi, korrupsiyanın yolverilməzliyi, bütün sahələrdə dürüstlüyün və şəffaflığın təmin edilməsi ilə bağlı tapşırıqlarını qeyd edən Şuranın sədri hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının qətiyyətlə alınması üzrə qarşıda duran vəzifələri vurğulayıb. Yuxarı instansiya məhkəmələrinin diqqəti yol verilən pozuntulara cəlb edilməklə belə hallara qarşı prinsipiallığın artırılmasının vacibliyi nəzərə çatdırılıb.

2019-cu ildə 100-dən çox hakimin, o cümlədən Ali Məhkəmənin 22, apellyasiya məhkəmələrinin 38, birinci instansiya məhkəmələrinin isə 42 hakiminin fəaliyyətinin qiymətləndirilməsinin nəzərdə tutulduğu qeyd edilərək, tələbkarlığın, xüsusilə məhkəmə sədrlərinin məsuliyyət hissinin artırılması üzrə konkret tapşırıqlar verilib. Bildirilib ki, ötən il vətəndaşlarda haqlı narazılıq doğuran pozuntulara görə Şura tərəfindən 14 hakimin fəaliyyəti qanunvericiliklə nəzərdə tutulmuş qaydada qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilib, habelə 4 məhkəmə sədri aşağı işə keçirilib. 6 hakim intizam məsuliyyətinə cəlb edilib, 2 nəfərin tutduğu vəzifədən azad edilməsi, 1 nəfərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qərarlar qəbul olunub.

Ümumiyyətlə isə Şuranın fəaliyyət göstərdiyi 2005-ci ildən hakimlər barədə 250-dən çox intizam icraatı başlanılıb, 122 hakim qanunvericiliklə nəzərdə tutulmuş müxtəlif əsaslarla, o cümlədən, 14 nəfər intizam qaydasında, 74 nəfər səlahiyyət müddəti bitdiyinə görə, 34 nəfər isə yaş həddinə çatması ilə əlaqədar səlahiyyət müddəti uzadılmayaraq məhkəmə sistemindən kənarlaşdırılıb.

Ötən ilin sonunda paytaxtda və bölgələrdə bütün məhkəmə sədrlərinin və hakimlərin iştirakı ilə geniş müşavirələr keçirilərək ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlər, məhkəmə fəaliyyətində mövcud problemlər, yol verilən nöqsanlar və onları doğuran səbəblər ətraflı təhlil olunub, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qəti şəkildə diqqətə çatdırılıb.

Məhkəmə-Hüquq Şurasının iclasında çıxış edən Ali Məhkəmənin sədri Ramiz Rzayev ölkə başçısının korrupsiyaya qarşı mübarizənin sərtləşdirilməsi və nəzarətin gücləndirilməsi barədə qəti tapşırıqlarının məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində əsas "yol xəritəsi" olduğunu vurğulayıb, bu sahədə əlavə mexanizmlərin müəyyənləşdirildiyini və vahid məhkəmə təcrübəsinin formalaşdırılmasının əhəmiyyətini qeyd edib, yol verilən pozuntulardan ciddi nəticələr çıxarılmasının zəruriliyini bildirib.

Şuranın iclasında, həmçinin qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına, süründürməçilik və digər pozuntulara yol verdiklərinə görə Şabran rayon məhkəməsinin sədri Çingiz İsgəndərova, Bakı şəhəri Qaradağ rayon məhkəməsinin hakimi Teymur Qurbanova, Quba rayon məhkəməsinin hakimi İlqar Məmmədova, Abşeron rayon məhkəməsinin hakimi Sevinc Quliyevaya, Mingəçevir şəhər məhkəməsinin hakimi Ələkbər Hüseynova və Xaçmaz rayon məhkəməsinin hakimi Vladimir Ruvinova töhmət verilib, Abşeron rayon məhkəməsinin hakimi Vaqif Həsənova irad tutulub, bir neçə hakim barədə intizam icraatları başlanılıb.

Qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına və korrupsiyaya şərait yaradan hallara yol verilməsinə görə Sumqayıt şəhər məhkəməsinin hakimi İlyas Mahmudovun hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, Gəncə şəhəri Kəpəz rayon məhkəməsinin hakimi Yaşar Həşimovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi, habelə korrupsiyaya dair konkret faktların araşdırılıb hüquqi qiymət verilməsi üçün materialların Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilməsi barədə qərar qəbul edilib.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Suraxanı rayonundakı 2 saylı uşaq evinin sakinləri ilə görüşüb



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Suraxanı rayonundakı 2 saylı uşaq evində olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Leyla Əliyeva uşaq evinin yeni idman meydançasında yaradılan şəraitlə tanış olub.

İdman meydançası Heydər Əliyev Fondunun təşəbbüsü və Çinin Azərbaycandakı səfirliyinin dəstəyi ilə inşa edilib. Burada müxtəlif idman qurğuları quraşdırılıb, azyaşlılar üçün futbol və basketbol meydançası yenidən yaradılıb. Həyətyanı sahə abadlaşdırılıb.



Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva uşaq evinin sakinləri ilə görüşüb, onlarla söhbət edib.



Leyla Əliyeva Xocalı soyqırımına həsr olunan bədii kompozisiyanı izləyib.

Tədbirdə iştirak edən Çinin Azərbaycandakı səfiri Vey Cinhua ölkəsində və Azərbaycanda uşaqlara, xüsusən aztəminatlı və xüsusi qayğıya ehtiyacı olanlara yüksək diqqət göstərdiklərini bildirib.

**"Uşaqlar ölkənin gələcəyi, millətin ümidləridir. Biz 2 saylı uşaq evində yaradılan yüksək şəraitə, təhsil avadanlığına və güclü müəllim heyətinə görə ürəkdən şadıq. Buradakı uşaqlar bütün lazımi vasitələrlə, böyük qayğı ilə əhatə ediliblər. Bu uşaqlar ata-anaları ilə bir yerdə olmasalar da, yenə xoşbəxtdirlər. Çünki onlar hər cür qayğı ilə əhatə olunublar"**, - deyən diplomat diqqətə çatdırıb ki, bu, Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın uşaqların sağlam və savadlı böyüməsinə göstərdiyi diqqətin təzahürüdür.

Səfir uşaqlara xoşbəxt həyat, güclü və sağlam böyüyərək qabiliyyətli şəxslər kimi yetişməyi, gələcəkdə onların da Çin-Azərbaycan dostluğuna töhfə vermələrini arzulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və digər qonaqlar uşaq evinin sakinlərinin Xocalı soyqırımının 27-ci ildönümünə həsr etdikləri rəsm əsərlərinin sərgisi ilə də tanış olublar. Uşaqlar öz əsərləri barədə məlumat veriblər.

Qeyd edək ki, uşaq evlərinin sakinlərinin qayğılarını, burada onlar üçün yaradılmış şəraiti daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2 saylı uşaq evi üçün 2016-cı ildə Zirə qəsəbəsində "Dalğa" yay düşərgəsi də inşa olunub.

# Heydər Əliyev Fondunun dəstəyi ilə daha bir qrup Qarabağ müharibəsi əlili protezlərlə təmin olunub









Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, yaralanmış hərbçilərin yüksək texnologiyalı protezlərlə təmin olunması proqramı çərçivəsində daha bir qrup Qarabağ müharibəsi əlili protezləşməyə cəlb edilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fonduna müraciət edən 30-dək hərbçinin hər birinin fərdi xüsusiyyətləri, aktivlik dərəcələri, həyat tərzləri nəzərə alınmaqla yüksək texnologiyalı məhsullar seçilib.

Tətbiq olunan protezlərin texniki imkanları normal həyat dinamikasına imkan yaradır, istifadəçi daha rahat, təbii və təhlükəsiz hərəkət edir.

Protezlərlə təmin olunan Qarabağ müharibəsi əlilləri artıq aktiv həyata geri dönərək əmək fəaliyyətlərini davam etdirir. Onların sırasında hərbi xidmətlərinə davam edən, paralimpiya idman növləri ilə məşğul olanlar da var. Paralimpiyaçıların sözlərinə görə, onlar müasir protezlərlə məşq və yarışlara rahatlıqla qatıla bilirlər. **"Bizim üçün belə bir addım tək maddi dəstək deyil, həm də böyük mənəvi dəstəkdir"**, - deyən hərbçilər onlara göstərilən diqqət və qayğıya görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Xatırladaq ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən hərbçilərin yüksək texnologiyalı protezlərlə təminolunma proqramı çərçivəsində 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlər müasir protezlərlə təmin edilmişdi. Eyni zamanda, 2018-ci ildə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunmuşdu.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub.



AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya müəssisə barədə məlumat verilib. Bildirilib ki, 1944-cü ildən fəaliyyət göstərən institut hazırda üç hissədən ibarətdir: klinika, mərkəzi qan bankı və elm bölməsi. Klinikanın tərkibinə böyüklər üçün iki hematoloji şöbə, uşaq hematologiyası, reanimasiya və intensiv terapiya, konsultativ poliklinika, klinik-diaqnostik laboratoriya və talassemiyanın profilaktikası şöbələri daxildir. İnstitutun elm hissəsində bu sahənin aktual problemlərinə həsr olunan tədqiqatlar aparılır. Elmi araşdırmaların nəticələri nüfuzlu yerli və xarici jurnallarda nəşr edilir. 2017-ci ildə Dövlət Proqramı çərçivəsində institutda yeni immunohistoloji müayinələrin aparılması üçün laboratoriya da yaradılıb. Burada immunohistokimyəvi müayinələrin köməyi ilə qanın bədxassəli xəstəliklərinin tam diferensial diaqnostikası, hədəf terapiyanın monitorinqi və xəstəliyin proqnozu müəyyən edilir. Artıq leykozların diaqnostikası və müalicəsi məqsədilə xəstələrin digər ölkələrə getməsinə ehtiyac qalmır.

Leyla Əliyeva institutun mərkəzi qan bankında da olub. Bank donor qanının tədarükü, işlənilməsi, yoxlanılması və paylanması ilə məşğul olur. Mərkəzi qan bankının respublikada 8 bölməsi fəaliyyət göstərir. Burada nikaha daxil olan şəxslər talassemiyalara görə müayinədən keçirilir.

Heydər Əliyev Fondunun vitse-prezidenti burada müalicə alan uşaqlarla görüşüb, onlarla söhbət edib.



Leyla Əliyeva uşaqların səhhəti, müalicəsi zamanı istifadə edilən üsullar ilə maraqlanıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti tibb ocağında müalicə alan uşaqların tezliklə sağalmalarını arzulayıb. Qan xidməti üzrə Dövlət Proqramının yerinə yetirilməsi nəticəsində hazırda müalicə müəssisələrinin təhlükəsiz və keyfiyyətli qan və qan komponentləri ilə təmin edilməsi məsələsi həll edilib. Donorluğun təbliği sahəsində müasir üsullardan istifadə edilməsi ildən-ilə donorların sayının və tədarük edilən qan və onun komponentlərinin miqdarının artmasına gətirib çıxarıb. Hazırda respublika üzrə donorların sayı 90 min 490 nəfərdir.



# Avropa Mərkəzçi Demokrat İnternasionalın Prezidenti Andres Pastrananın rəhbərlik etdiyi nümayəndə heyəti YAP-ın dəvətli ilə Bakıya səfərə gəlib

Avropa Mərkəzçi Demokrat İnternasionalın (MDİ) Prezidenti Andres Pastrananın rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə Bakıya səfərə gəlib.

Cənab Andres Pastrananı Azərbaycana səfəri çərçivəsində MDİ-nin Baş katibi cənab Antonio Lopez-İsturiz Uayt və baş koordinator Sezar Rossello müşayiət edəcək.

Avropa Mərkəzçi Demokrat İnternasionalın nümayəndə heyətinin fevralın 27-də başlayan səfəri çərçivəsində Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov ilə görüşü nəzərdə tutulub.

Nümayəndə heyətinin səfər proqramına bir sıra rəsmi görüşlər, Müşviqabad qəsəbəsində məcburi köçkün ailələri ilə görüş, eləcə də Bakının tarixi-mədəni abidələri ilə tanışlıq daxildir.

Avropa Mərkəzçi Demokrat İnternasionalın nümayəndə heyətinin Bakıya səfəri fevralın 28-də başa çatacaq.

# Avropa Mərkəzçi Demokrat İnternasionalın Prezidenti Andres Pastrana Müşfiqabad qəsəbəsində məskunlaşmış məcburi köçkün ailələri ilə görüşüb





Avropa Mərkəzçi Demokrat İnternasionalın (MDİ) Prezidenti Andres Pastrana Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində məskunlaşmış məcburi kockün ailələri ilə görüşüb, onların yaşayış şəraiti ilə tanış olub. Görüşdə Yeni Azərbaycan Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva iştirak edib.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hacıqabulda vətəndaşları qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 27-də Hacıqabulda Şirvan şəhər, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar və Cəbrayıl rayonlarının sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla anıblar.

Hacıqabuldakı Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# Hacıqabulda “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda regional konfrans işə başlayıb





Fevralın 27-də Hacıqabulda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Hacıqabul Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Müasir çağırışlar: dini durum və vəzifələr” mövzusunda regional konfrans işə başlayıb.

İki gün davam edəcək konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Hacıqabul Rayon İcra Hakimiyyətinin rəhbər işçiləri, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət fəalları, həmçinin dini icma sədrləri, din xadimləri və ilahiyyatçılar iştirak edirlər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, konfransda ölkəmizdə dini durum, multikultural dəyərlərin qorunması, eyni zamanda, tolerantlıq mühitinin, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələr aparılıb.

Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov çıxış edərək, son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Hacıqabulda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin siyasəti nəticəsində xalqımızın adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanılıb, etiqad azadlığı bərqərar olub. Ölkəmizin dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsi dünyada uğurlu bir model kimi yüksək qiymətləndirilir. Ə.Muxtarov Hacıqabulda dini durumun sabit olduğunu və bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini durum və sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasının Ümummilli Liderin adı ilə bağlı olduğunu bildirib. Vurğulayıb ki, Ulu Öndərin dövlət-din münasibətləri sahəsindəki nümunəvi siyasəti Onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla reallaşdırılır. Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Mübariz Qurbanlı gənc nəslin milli ruhda tərbiyə edilməsinin vacibliyinə də toxunub. O, bu sahədə dövrün tələblərinə uyğun islahatların aparılmasının, savadlı milli kadrların hazırlanmasının və milli-mənəvi dəyərlərimizin təbliğ və təşviq edilməsinin dini durumun və sabitliyin tənzimlənməsi işinə müsbət nəticələr verəcəyini qeyd edib.

Dinin siyasiləşdirilməsi cəhdləri barədə də danışan Dövlət Komitəsinin sədri dünyanın bir çox ölkələrində din amilindən istifadənin vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxardığını deyib. O, DQİDK-nın milli maraqlarımıza zidd olan yad dini ideologiyaların yayılmasının, eləcə də dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınmasında qabaqlayıcı amil kimi mütəmadi olaraq maarifləndirmə tədbirləri təşkil etdiyini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsni Həsənov gənclərin dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorunmasında din xadimlərinin üzərinə mühüm vəzifə düşdüyünü qeyd edib. Həmçinin dini radikalizmlə mübarizədə maarifçilik işinin təşkilinə xüsusi önəm verilməsinin vacibliyini diqqətə çatdırıb.

Regional konfrans işini fevralın 28-də “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panellə davam etdirəcək.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş olub



Fevralın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Maku Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Qulamrza Süleymaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qonaqları Naxçıvanda görməkdən məmnunluğunu ifadə edib, yeni vəzifəsində Qulamrza Süleymaniyə uğurlar arzulayıb. Ali Məclisin Sədri ölkə prezidentləri arasındakı xoş münasibətin Azərbaycan-İran əlaqələrinin inkişafında mühüm amil olduğunu bildirib. Naxçıvan Muxtar Respublikası ilə İranın Qərbi və Şərqi Azərbaycan vilayətləri arasındakı iqtisadi və mədəni əlaqələrdən bəhs edən Ali Məclisin Sədri gömrük-keçid məntəqələrinin fəaliyyətini və gediş-gəlişin artmasını əməkdaşlığın nəticəsi kimi dəyərləndirib.

Ali Məclisin Sədri muxtar respublikanın iş adamlarının Maku Azad Ticarət və Sənaye Zonası ilə əlaqələrindən danışıb və səfərin əhəmiyyətini vurğulayıb.

Qulamrza Süleymani İranın Azad Ticarət, Sənaye və Xüsusi İqtisadi Zonalar üzrə rəhbəri Morteza Bankın və Qərbi Azərbaycan Vilayətinin valisi Məhəmməd Mehdi Şəhriyarinin salamlarını Ali Məclisin Sədrinə çatdırıb. Maku Azad Ticarət və Sənaye Zonasının fəaliyyətindən danışan Qulamrza Süleymani ikitərəfli əlaqələrə və Naxçıvan Muxtar Respublikasının inkişafına diqqət çəkib, əməkdaşlığın perspektivlərini qeyd edib.

Ali Məclisin Sədri İranın Azad Ticarət, Sənaye və Xüsusi İqtisadi Zonalar üzrə rəhbərinin və Qərbi Azərbaycan Vilayətinin valisinin salamlarına görə təşəkkür edib, onun da salamlarını Morteza Banka və Məhəmməd Mehdi Şəhriyariyə çatdırmağı xahiş edib.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak edib.

# Qaraçay-Çərkəz Respublikasında Qafqaz Xalqları Ali Dini Şurasının növbəti iclası keçirilib





Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə fevralın 27-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasında səfərdə olub.



Bu barədə AZƏRTAC-a Qafqaz Müsəlmanları İdarəsinin mətbuat xidmətindən məlumat verilib.

Çerkesskə səfər çərçivəsində QMİ sədri A.Paşazadə Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezov tərəfindən qəbul edilib. Görüşdə respublika rəhbəri Azərbaycana bu yaxınlarda etdiyi səfərin xoş təəssüratlarını bölüşüb.

Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid Temrezova çatdıran A.Paşazadə xalqlarımız arasında qarşılıqlı görüş və səfərlərin böyük önəm daşıdığını, ölkələrimiz arasında dostluq, qardaşlığın dərinləşməsinə, həyatın bütün sahələrində, o cümlədən iqtisadi və mədəni-mənəvi müstəvilərdə əlaqələrin inkişafına xidmət etdiyini vurğulayıb. Fevralın 26-da Azərbaycanda Xocalı soyqırımının 27-ci ildönümünün geniş şəkildə qeyd olunduğunu deyən A.Paşazadə XX əsrdə erməni ekstremistləri tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı cinayətinin dünyada tanıdılmasının vacibliyinə diqqət çəkib.



Qaraçay-Çərkəz Respublikasının başçısı R.Temrezov QMİ sədri A.Paşazadəni Şimali Qafqaz və Azərbaycan xalqları arasında sülhün möhkəmləndirilməsi, dinlərarası münasibətlərin inkişafı və dostluğun dərinləşdirilməsi işinə verdiyi şəxsi töhfələrinə görə “Qaraçay-Çərkəz Respublikası qarşısında xidmətlərinə görə” ordeni ilə təltif edib.

Şeyxülislam A.Paşazadə Çerkessk şəhərində sədri olduğu Qafqaz Xalqları Ali Dini Şurasının (QXADŞ) növbəti toplantısının keçirilməsi barədə R.Temrezova məlumat verib və bildirib ki, bu dəfəki toplantı Şimali Qafqaz müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevin anadan olmasının 65 illik yubileyinə həsr olunub. Şimali Qafqaz müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri İsmayıl Berdiyev görüşdə iştirak edib.

Daha sonra Çerkessk şəhərində QXADŞ-nın növbəti iclası keçirilib. İclasda QMİ sədri A.Paşazadə Şimali Qafqaz müsəlmanları Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-Çərkəz Müftisi İsmayıl Berdiyevi anadan olmasının 65 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edib, bütün Qafqaz müsəlmanları, bölgə dindarları adından ona cansağlığı, uzun ömür və dəyərli fəaliyyətində yeni uğurlar arzulayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yubilyara təbrik məktubunu oxuyan Şeyxülislam A.Paşazadə təbriknaməni müftiyə təqdim edib.

QXADŞ-nın üzvləri olan Şimali Qafqaz müftiləri adından Şimali Osetiya-Alaniya Müftisi Hacımurat Qatsalov, habelə, Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr çıxış edərək müfti İ.Berdiyevin dini lider və Əlaqələndirmə Mərkəzinin sədri qismində fəaliyyətini yüksək qiymətləndirib, ona gələcək işlərində uğurlar diləyiblər.

Azərbaycan nümayəndə heyətində təmsil olunan Milli Məclisin deputatı Hüseynbala Mirələmov müfti İsmayıl Berdiyevin Azərbaycan və Qaraçay-Çərkəz xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsi işinə verdiyi töhfələri hər iki xalqın yüksək dəyərləndirdiyini bildirib, yubilyara ümumqafqaz əhəmiyyətli fəaliyyətində yeni nailiyyətlər diləyib.

İclasda QXADŞ-nın bu ilin yanvarında Vladiqafqazda keçirilən toplantısından sonrakı dövrün hesabat məruzəsi ilə Şuranın sədri şeyxülislam A.Paşazadə çıxış edib.

Şuranın iclasında, həmçinin cari məsələlər, Qafqaz xalqlarının qarşılıqlı dostluq, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində atılan addımlar müzakirə edilib.

Qaraçay-Çərkəz Respublikasına səfərdə Azərbaycan nümayəndə heyəti tərkibində Milli Məclisin deputatları Hüseynbala Mirələmov, Cavanşir Paşazadə və Hikmət Məmmədov iştirak ediblər.

Səfər başa çatıb.

# Avtomobil Yolları Dövlət Agentliyində növbəti hesabat-seçki yığıncağı keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) üzrə ərazi ilk partiya təşkilatının Gənclər Birliyinin hesabat-seçki yığıncağı keçirilib.

Agentliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbir iştirakçıları əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

AAYDA-nın İdarə Heyətinin sədri Saleh Məmmədov qeyd edib ki, ölkə 1993-cü ilin yayında vətəndaş müharibəsi astanasında olarkən xalqın bütün ümidi Ulu Öndər Heydər Əliyevə idi. O vaxt xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Ümummilli Lider qısa müddətdə respublikada ictimai-siyasi vəziyyəti sabitləşdirərək ölkəmizin inkişaf yoluna qədəm qoyması istiqamətində mühüm addımlar atdı.

S.Məmmədov Yeni Azərbaycan Partiyasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrlə yanaşı, yol infrastrukturunun sistemli və hərtərəfli inkişafına xüsusi diqqət göstərildiyini, ölkənin regionlarında, eləcə də paytaxtda bu sahədə vəziyyətin kökündən dəyişdiyini, dövlət başçısının sərəncamları ilə ayrılan vəsaitlərin yol infrastrukturunun dinamik inkişafına yol açdığını və bu istiqamətdə həyata keçirilən məqsədyönlü, sistemli tədbirlərin nəticəsi olaraq, avtomobil yollarının tikintisinin, yenidən qurulmasının həcminin ildən-ilə artdığını vurğulayıb.

YAP Nəsimi rayon təşkilatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi üzrə ərazi ilk partiya təşkilatının sədri Əvəz Qocayev AAYDA üzrə 3 minədək partiya üzvündən 700-ə yaxın əməkdaşın YAP Nəsimi rayon təşkilatının qeydiyyatında olduğunu və təşkilat tərəfindən keçirilən bütün tədbirlərdə ilk ərazi təşkilatı üzvlərinin aktiv iştirak etdiyini diqqətə çatdırıb. Ə.Qocayevin təklifi ilə təşkilatın Gənclər Birliyinin İdarə Heyətinin 9 nəfərdən ibarət tərkibi, birliyinin sədri və sədr müavinlərinin seçilməsi səsə qoyulub. Səsvermənin nəticəsinə uyğun olaraq, Mehman Musayev Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı AAYDA üzrə ərazi ilk partiya təşkilatının Gənclər Birliyinin sədri, Elmar İntiqam və Günay İsrafilli isə sədr müavinləri seçilib.

O, YAP Nəsimi rayon təşkilatının Gənclər Birliyinin konfransına nümayəndələrin də seçilməsini təklif edib. Təklif səsə qoyularaq qəbul edilib.

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı AAYDA-nın YAP Nəsimi rayonu üzrə ən böyük ərazi təşkilatı olduğunu bildirib, sözügedən təşkilatın nümunəvi təşkilat olaraq partiyanın inkişafına öz layiqli töhfəsini verdiyini vurğulayıb.

# Hikmət Babaoğlu: Planlı xarakter daşıyan islahatların məqsədi vətəndaşlarımızın sosial rifahını daha da yaxşılaşdırmaqdır

2019-cu ilin əvvəllərindən başlayaraq əhalinin sosial təminatının gücləndirilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində az qala hər gün Azərbaycan Prezidenti tərəfindən imzalanan yeni bir Fərman və Sərəncamın şahidi oluruq. Əhalinin aztəminatlı kateqoriyası hesab edilən qaçqın və məcburi köçkünlərin aylıq müavinətlərinin artırılması ilə bağlı yeni bir Sərəncam da imzalandı. Sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılır. Bütün bu addımlar Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən kompleks sosial islahatlar paketinin tərkib hissəsi kimi qiymətləndirilməlidir.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputat qeyd edib ki, əvvəlcədən müəyyənləşdirilmiş və planlı xarakter daşıyan bu islahatların məqsədi vətəndaşlarımızın sosial rifahının daha da yaxşılaşdırılmasından ibarətdir. Nəinki MDB məkanında, bütövlükdə dünyada çox az dövlət tapıla bilər ki, əhalinin sosial problemlərinin həllinə bu qədər diqqət göstərsin. Nəzərə almaq lazımdır ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində bizdə sosial qayğıya ehtiyacı olan xüsusi kütləvi təbəqə formalaşıb və onların sayı bir milyona bərabərdir. Bu isə dövlət üçün əlavə maliyyə mənbələri tapmaqla onu sosial sferaya yönəltmək zərurəti formalaşdırır. Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi siyasət hazırda sosial məsələləri həll etmək üçün imkanlar yaradıb və gələcəkdə də bu istiqamətdə fəaliyyətin davamlı olması perspektivlərini müəyyənləşdirib. Bütün bunlar dövlətimizin öz vətəndaşlarına qayğısının təzahürüdür.

# Prezident İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı ilə sosial müdafiə tədbirlərinin əhatə dairəsi daha da genişləndirildi

*Ekspertlər dövlətimizin başçısının imzaladığı müvafiq Sərəncama əsasən ölkəmizdə sosial müavinət və təqaüdlərin əhəmiyyətli şəkildə artırılmasının təqdirəlayiq olduğunu bildirirlər*



Azərbaycanda dinamik inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin milli gücünün artmasını təmin edib. Ölkəmizin davamlı inkişafından, iqtisadi potensialın mütəmadi surətdə genişlənməsindən bütün respublika boyu sosial infrastruktur yaradılması, insanların həyat şəraitinin daha da yaxşılaşdırılması, maddi təminatlarının möhkəmləndirilməsi məqsədilə səmərəli şəkildə istifadə olunur. Ümumiyyətlə, sosial sahədə ardıcıl olaraq həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının daha da yaxşılaşdırılması, vətəndaşların hərtərəfli qayğı ilə əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir. Bu məqamda qeyd etmək yerinə düşər ki, təkcə 2019-cu ilin əvvəlindən etibarən Azərbaycanın dövlət başçısı əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, ölkə vətəndaşlarının gəlir imkanlarının artırılmasına hesablanan bir sıra Fərman və sərəncamlar imzalayıb. Prezident İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 25 fevral 2019-cu il tarixdə imzaladığı Sərəncam da əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daha bir inqilabi addımdır. Sənəddə vurğulandığı kimi, Sərəncamın imzalanmasında məqsəd əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirməkdir.



**Sahibə Qafarova:** *Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir*

Ekspertlər qeyd edirlər ki, Prezident İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı ilə sosial müdafiə tədbirlərinin əhatə dairəsi daha da genişləndirilib. Qeyd edilir ki, sözügedən Sərəncama əsasən ölkəmizdə sosial müavinət və təqaüdlərin əhəmiyyətli şəkildə artırılması təqdirəlayiqdir. Məsələyə münasibət bildirən Milli Məclisin deputatı Sahibə Qafarova deyib ki, Azərbaycanda uğurlu sosial-iqtisadi siyasət həyata keçirilir və bu, ölkəmizin hərtərəfli inkişafına xidmət edir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır: **"Azərbaycanın həyata keçirdiyi geniş məzmunlu sosial siyasətin əsas xarakterik cəhətlərindən biri də odur ki, ölkəmizdə dövlət qayğısı əhalinin bütün təbəqələrini əhatə edir. Başqa sözlə, Azərbaycanda əhalinin bütün təbəqələrinə dövlət tərəfindən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Dövlətimizin başçısının sosial dövlət fəlsəfəsinin əsasında hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsi prinsipi durur. Bu gün Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamla sosial müavinətlər və təqaüdlər, yəni 600 minə yaxın insana dövlət qayğısı əhəmiyyətli şəkildə artırılıb. Sözügedən Sərəncamla sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılmasından başqa, həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi təmin olunur. Sərəncama əsasən edilən artımlara görə cari ilin 9 ayı üçün əlavə olaraq 300 milyon manat, illik isə əlavə olaraq 400 milyon manat vəsait ayrılacaq. Bu, bir daha onu göstərir ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir".**

S.Qafarova əlavə edib ki, Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə təmin edilənlərin əhatə dairəsinin genişlənməsinə əsas yaradan sözügedən Sərəncamda I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi, müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi kimi müddəalar yer alıb. **"Beləliklə, Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daha bir inqilabi addım atdı. Azərbaycanda sosial müavinət və təqaüdlərin əhəmiyyətli şəkildə artırılması dövlətin öz vətəndaşlarına verdiyi dəyəri ifadə etməklə yanaşı, əhalinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlərin davamlı xarakter daşıdığını göstərir",** - deyə millət vəkili vurğulayıb.



**Sədaqət Vəliyeva:** *Prezident İlham Əliyevin son qərarları böyük sosial islahatlar paketinin tərkib hissəsidir*

Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Sədaqət Vəliyeva isə deyib ki, Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, ölkəmizin daha da inkişafına xidmət edən sərəncamları, fərman və qərarları reallaşdırılan böyük sosial islahatlar paketinin tərkib hissəsidir. Onun sözlərinə görə, 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödənişin edilməsi, şəhid ailələrinin müavinətlərinin 242 manatdan 300 manata, Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinətin 220 manatdan 300 manata qaldırılması, minimum əməkhaqqının 38 faiz artırılaraq 130 manatdan 180 manata çatdırılması, həmçinin minimum pensiyaların məbləğinin də təxminən 38 faiz - 116 manatdan 160 manata qədər artırılması, eləcə də təqribən 100 minə yaxın tələbənin təqaüdünün qaldırılması Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində ölkə vətəndaşının dayandığını bir daha sübut etmiş olur.

Millət vəkili əlavə edib ki, Prezident İlham Əliyev sosial tədbirlərin davam etdirilməsi üçün müvafiq addımların atılması istiqamətində tapşırıqlar da verib: **"Məsələn, vətəndaşları narahat edən məsələlərdən biri də problemli kreditlərlə bağlıdır. Bu problemlə də əlaqədar dövlətimizin başçısı xüsusi həssaslıq nümayiş etdirib və məsələnin vətəndaşların xeyrinə həll edilməsi üçün müvafiq göstərişlər verib. Əminəm ki, bu problem də qısa zaman ərzində həllini tapacaq".**

**"Prezident İlham Əliyev tərəfindən atılan addımlar, görülən işlər bir daha təsdiq edir ki, Azərbaycanda həyata keçirilən sosial siyasət sistemli, düşünülmüş kompleks tədbirlərdən ibarətdir",** - deyə Sədaqət Vəliyeva vurğulayıb.

**NURLAN**

# Avropa Mərkəzçi Demokrat İnternasionalın Prezidenti Andres Pastrana Şəhidlər Xiyabanını və Xocalı soyqırımı abidəsini ziyarət edib





Fevralın 27-də Avropa Mərkəzçi Demokrat İnternasionalın (MDİ) Prezidenti Andres Pastrana Şəhidlər Xiyabanını ziyarət edib.

Həmin gün Avropa Mərkəzçi Demokrat İnternasionalın (MDİ) Prezidenti Andres Pastrana Xocalı soyqırımı abidəsini ziyarət edib, abidənin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva qonağı müşayiət edib.

# Sumqayıt hadisələri erməni millətçiləri və onların havadarları tərəfindən öz məkrli niyyətlərinə nail olmaq məqsədilə törədilmişdi

*Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilmiş təxribat idi*

Tarixi faktlar göstərir ki, əzəli Azərbaycan torpaqlarında - indiki Ermənistanda, Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı yeddi rayonda yaşayan azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, doğma yurdlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar. Bu baxımdan, dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir. Başqa sözlə, Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Ermənistan Xocalı soyqırımını törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirib, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edib. Nəticədə 20 min soydaşımızın həyatına son qoyulub, 50 mindən çox insan isə yaralanıb və əlil olub, torpaqlarımızın 20 faizi işğala məruz qalıb. Xocalı soyqırımının dünyada tanıdılması, bu şəhərin sakinlərinə qarşı törədilən erməni vəhşilikləri haqqında həqiqətlərin dünyaya çatdırılması məqsədilə tədbirlər ardıcıl şəkildə davam etdirilir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb. Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşünün keçirilməsi sözügedən soyqırımı ilə bağlı aparılan genişmiqyaslı işin növbəti mərhələsidir. Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını göstərən bu yürüş həm də xalqımızın işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

Bütün bu tarixi gerçəklikləri və müasir reallıqları ört-basdır etmək üçün manipulyasiyaya yol verən ermənilər isə Xocalı soyqırımının ildönümü ilə bağlı Azərbaycanın gördüyü işlərin əhəmiyyətini azaltmaq və dünya ictimaiyyətinin diqqətini bu məsələdən yayındırmaq üçün müxtəlif vasitələrdən istifadə edir, o cümlədən öz məqsədlərinə uyğun olaraq - qərəzli şəkildə Sumqayıt hadisələrini fərqli formada qabardırlar. Reallıq isə budur ki, bəhs olunan hadisələr erməni millətçiləri və onların havadarları tərəfindən öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilib. Bu, kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilib. Ümumiyyətlə, 1988-ci ilin fevralında Sumqayıtda etnik zəmində törədilən iğtişaş həmin dövrdə məqsədyönlü təxribatların kulminasiyası idi. Bakının 30 kilometrliyində yerləşən, on beşdən artıq müxtəlif millətin yaşadığı Sumqayıt şəhərinin əhalisi 1988-ci ildə 258 min nəfər təşkil edirdi və bunun təqribən 18 mini etnik ermənilər idi. 1988-ci ilin fevralına qədər Sumqayıtda etnik zəmində hər hansı qarşıdurma olmayıb və bu gün də Sumqayıt digər Azərbaycan şəhərləri kimi çoxmillətli və çoxkonfessiyalı xüsusiyyətini saxlamaqdadır.

Bu kontekstdə bir sıra məqamlara nəzər salmaq gərəkdir. Xatırlatmaq yerinə düşər ki, 1988-ci ilin 26 fevralında Sumqayıtın mərkəzi meydanı Azərbaycanın Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən iki gəncin öldürülməsinə etiraz olaraq nümayişçilər tərəfindən tutuldu. Erməni ekstremistləri və təxribatçı agentlər tərəfindən bu etiraz aksiyası iğtişaşa doğru təhrik edildi. İğtişaşı araşdırmaq üçün SSRİ Baş Prokurorluğu tərəfindən cinayət işi başlandı, xüsusilə mühüm işlər üzrə müstəntiq Vladimir Qalkinin rəhbərliyi ilə ölkənin müxtəlif regionlarından cəlb edilmiş 231 nəfər istintaqçı və bir o qədər də əməliyyatçıdan ibarət xüsusi istintaq-əməliyyat qrupu yaradıldı. SSRİ Baş Prokurorluğu tərəfindən aparılan istintaq nəticəsində iğtişaş zamanı 26 erməni, 6 azərbaycanlı olmaqla, 32 nəfərin öldürüldüyü müəyyən edildi, məhkəmənin qərarı ilə 92 nəfər uzunmüddətli həbs cəzasına, 1 nəfər isə ölüm hökmünə məhkum olundu. Lakin SSRİ Baş Prokurorluğu tərəfindən aparılmış istintaqla iğtişaş iştirakçılarının yalnız bir qismi müəyyən edilib məhkəmənin qərarı ilə cəzalandırıldı, SSRİ-nin siyasi rəhbərliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təzyiqləri nəticəsində istintaq məntiqi sonluğa çatdırılmadı, onun təşkilatçıları və sifarişçiləri müəyyən edilmədi. Bu cinayətin əsl mahiyyətini açmaq, SSRİ Baş Prokurorluğunun üstündən sükutla keçdiyi məqamları araşdırmaq üçün Azərbaycanın qəti siyasi iradəsinin təzahürü olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və Azərbaycan Respublikası Baş prokurorunun 19 mart 2010-cu il tarixli qərarı ilə həmin kütləvi iğtişaşlarla əlaqədar keçmiş SSRİ Baş Prokurorluğu tərəfindən istintaqı aparılaraq sonradan dayandırılmış 5 cinayət işinin icraatı təzələnərək vahid icraatda birləşdirildi. İstintaqın aparılması Baş prokurorun birinci müavininin rəhbərliyi ilə prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətinin müstəntiq və əməliyyatçılarından ibarət yaradılmış istintaq-əməliyyat qrupuna həvalə edildi.

Hazırkı istintaq qrupu tərəfindən toplanmış materialların qiymətləndirilməsi və təhlili təsdiq edir ki, Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilmiş təxribat olub. SSRİ Konstitusiyası əsasında Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının qeyri-qanuniliyini dərk edən erməni ideoloqları və SSRİ rəhbərliyində onları açıq dəstəkləyən şəxslər ermənilərin və azərbaycanlıların birgə yaşamasının qeyri-mümkünlüyünü əsaslandırmaq, azərbaycanlıların artıq tam şəkildə Ermənistan ərazisindən qovulmasını təmin etmək və Azərbaycanı nüfuzdan salmaq üçün bu təxribata əl atdılar. Digər tərəfdən, həmin təxribatın törədilməsində SSRİ DTK-nın məqsədi SSRİ-nin əyalətlərində vəziyyəti gərginləşdirərək güclənən mərkəzdənqaçma meyillərini dayandırmaq, sərt repressiya metodlarına əl atmağa bəraət qazandırmaq və güclü mərkəzi Sovet hakimiyyəti olmadan Sovet respublikalarının müstəqil yaşaya bilməyəcəklərini nümayiş etdirmək olmuşdur. Sumqayıt hadisələrinə bənzər iğtişaş və təxribatlar DTK tərəfindən Oş, Fərqanə, Tbilisi, Vilnüs və digər ərazilərdə də təşkil olunmuşdu.

Bir məqama da diqqət yetirmək lazımdır. Belə ki, sözügedən hadisələr ərəfəsində və hadisələr baş verən gün Sumqayıt şəhərində, onun ətrafında SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və ordu birləşmələrinin kifayət qədər canlı qüvvəsi və texnikası olsa da, onlar tərəfindən vəziyyətin nəzarət altına alınması üçün vaxtında qabaqlayıcı tədbirlər görülməmişdi. Evlərə basqın və digər zorakılıq hərəkətləri əvvəlcədən hazırlanmış siyahı və xüsusi plan əsasında əslən erməni olan Sumqayıt şəhər sakini, dəfələrlə məhkum olunmuş Eduard Qriqoryanın bilavasitə rəhbərliyi və göstərişləri üzrə həyata keçirilmiş, hücumlara məruz qalan ermənilər isə Dağlıq Qarabağın Azərbaycandan ayrılması məqsədini güdən gizli "Krunk" və "Karabakh" komitələrinə ianə verməkdən imtina edən şəxslər olmuşlar.

İğtişaşlarda E.Qriqoryan ermənilərə qarşı xüsusi qəddarlığı ilə seçilib, zorlamaya məruz qoyduğu erməni Məjlumyan bacıları tərəfindən istintaq zamanı qəti olaraq tanınıb. Məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilən E.Qriqoryan SSRİ dağılandan sonra Ermənistanın həbsxanasına köçürülüb və oradan da dərhal müəmmalı şəkildə azadlığa buraxılıb. Hazırda istintaqı aparılan cinayət işi üzrə ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, qrup halında zorlama və digər ağır cinayətləri törətməkdə təqsirləndirilən, barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilmiş E.Qriqoryanın faktiki yaşadığı ünvanın operativ kanallarla müəyyən olunmasına və ictimaiyyətə bu barədə məlumat verilməsinə baxmayaraq, o, Ermənistanın xüsusi xidmət orqanlarının himayəsi altında üçüncü ölkənin ərazisində azadlıqda yaşamaqda davam edir.

Ümumiyyətlə, cinayət işinin materialları bir daha göstərir ki, Sumqayıtın azərbaycanlı sakinlərinin fərdi humanizmi və şücaəti olmasaydı, hadisələr planlaşdırılmış təxribat planına uyğun olaraq daha geniş miqyas alardı. Milliyyətcə erməni olan şahidlərin ifadələrindən göründüyü kimi, onlarla erməni hadisələr vaxtı azərbaycanlı ailələr tərəfindən öz evlərində yerləşdirilməklə xilas edilib. SSRİ dövründə foto-video çəkilişə xüsusi nəzarət və senzura tətbiq olunmasına baxmayaraq, hadisələrin əvvəlcədən quraşdırılmış vasitələrlə foto-video çəkilişi aparılıb və dərhal SSRİ ərazisindən çıxarılaraq erməni lobbi təşkilatları vasitəsilə anti-Azərbaycan kampaniyasının tərkib hissəsi kimi yayılıb.

Bu gün Ermənistan və erməni lobbisi tərəfindən Sumqayıt hadisələri qəsdən Azərbaycana qarşı təbliğat və dezinformasiya məqsədilə istifadə edilir. Amma reallıq budur ki, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, aparılmış obyektiv və faktlara söykənən istintaq materialları ilə həmin iğtişaşların məhz erməni millətçiləri və onların havadarları tərəfindən öz məkrli niyyətlərinə nail olmaq məqsədilə təşkil edilərək törədilməsi kifayət qədər və təkzibedilməz faktlarla sübuta yetirilib. Hazırda qeyd olunan iğtişaşların bütün sifarişçisi və iştirakçılarının aşkarlanaraq cinayət məsuliyyətinə cəlb olunması, eləcə də onların və havadarlarının ifşa olunması istiqamətində kompleks istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**N.QƏLƏNDƏRLİ**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

www.kivdf.gov.az

# Ötən il Şirvan bölgəsi üçün də uğurlarla yadda qalıb

*2018-ci il ərzində bölgəyə daxil olan rayonlarda iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, qazanılan nailiyyətlər də bunu bir daha təsdiqləyir*




Azərbaycanda uğurla reallaşdırılan sosial-iqtisadi siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edib. Bu inkişafda isə 2004-cü ildən etibarən reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının xüsusi payı var. Çünki məhz bu proqramlar çərçivəsində atılan addımlar respublikanın bölgələrinin ümumi inkişaf dinamikasını təmin edib. Eyni zamanda, onu da vurğulamaq yerinə düşər ki, respublikamızda regionların sosial-iqtisadi inkişafına dair əvvəlki iki Dövlət Proqramı kimi, 2014-2018-ci illəri əhatə edən sayca üçüncü proqramın icrası da yüksək səviyyədə təmin olunub. Prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixində imzaladığı növbəti Fərmanla isə “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiqlənib. Yeri gəlmişkən, dövlət başçısı cari il yanvarın 29-da keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində ölkəmizin inkişafı baxımından üçüncü Dövlət Proqramını yüksək qiymətləndirib: **“Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası təmin edildi. Beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirildi. Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək”.**

Beləliklə, görünən odur ki, Azərbaycanda 2004-cü ildən etibarən böyük uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları respublikanın bölgələrinin ümumi inkişaf dinamikasını artırmaqla yanaşı, hər bir rayonda əldə edilən uğurlarla müşayiət olunub. Və 2018-ci ildə də davam edən bu uğurlardan ölkəmizin Şirvan bölgəsinə daxil olan Ağsu, İsmayıllı və Qobustan rayonlarına da pay düşüb.

Bir müddət öncə Ağsuda keçirilən hesabat yığıncağında da bəyan edildiyi kimi 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları bu rayon üçün də uğurlarla yadda qalıb. Yığıncaqda hesabat məruzəsi ilə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev bildirib ki, ötən il iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, uğurlar qazanılması ilə yadda qalıb. Vurğulanıb ki, 2018-ci ildə rayonda tikinti-quruculuq və abadlıq işləri genişlənib, sənaye məhsullarının həcmi artıb. 2018-ci ildə 7,6 milyon manatlıq sənaye məhsulları istehsal edilib ki, bu da əvvəlki illə müqayisədə 14,2 faiz çoxdur. Ötən il Cənubi Qafqaz regionunda ən iri müəssisələrdən olan “Az-Granata” MMC-nin şirə və şərab emalı zavodunda şərabsüzmə sexi və saxlanma anbarının inşası başa çatdırılıb.

Hesabat dövründə rayonun Ərəbsarvan kəndində ümumi ərazisi 1251 hektar olan “Ağsu Aqropark” yaradılıb. Aqroparkda 500 hektar sahədə pivot suvarma sistemi qurulub. Müasir maşın və avadanlıqlardan ibarət nəqliyyat və texnika parkı yaradılıb. Aqroparkda yem zavodu və toxum fabriki tikilib. Hazırda ətlik və südlük istiqamətli 2000 başlıq heyvandarlıq kompleksinin inşası davam etdirilir. İstifadəyə verildikdən sonra aqroparkda 200 nəfər işçi çalışacaq.

Ötən il ərzində həmçinin Ağsu şəhərində küçələrə 6,5 kilometr asfalt örtük salınıb, iki yaşayış binasının dam örtüyü dəyişdirilib, mədəniyyət sarayı yenidən qurulub. Uşaq bağçasının, taxıl məhsullarının saxlanılması və yem istehsalı terminalının, Çaparlı-Kəndoba-Cəlayir avtomobil yolunun tikintisində son tamamlama işləri aparılır. Habelə, bayraq kompleksinin və gənclər informasiya mərkəzinin inşası, Dilman-Xatman-Hacman-Kalva-Suraxanı kəndlərini birləşdirən 15 kilometrlik avtomobil yolunun inşası davam etdirilir.

Məruzə və çıxışlarda rayon iqtisadiyyatının aparıcı sahəsi olan kənd təsərrüfatında görülən işlər də geniş təhlil olunub. Heyvandarlıqda, barama istehsalında əvvəlki illə müqayisədə xeyli artım olduğu, lakin pambıq istehsalında mövcud imkanlardan heç də səmərəli istifadə edilmədiyi diqqətə çatdırılıb.

Hesabat yığıncağında yol infrastrukturunun yaxşılaşdırılması, yaşayış məntəqələrinin qazlaşdırılması, fasiləsiz elektrik enerjisi, su təchizatı ilə əlaqədar reallaşdırılan layihələrdən də danışılıb, təhsil və səhiyyə sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar görülən, habelə görüləsi işlərdən bəhs olunub.

Şirvan bölgəsinə daxil olan Qobustan rayonunda isə keçən il ümumi məhsul buraxılışının həcmi inişilki ilə müqayisədə 8,2 faiz artaraq 178 milyon 669,2 min manat olub. Ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi 97,9 faiz təşkil edir. Hesabat ilində 317-si daimi olmaqla, 2839 yeni iş yeri açılıb. Bu məlumatlar Qobustanda 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunan hesabat yığıncağında səsləndirilib. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədovun hesabat məruzəsində bildirilib ki, ötən il məhsul buraxılışının 43 faizi aqrar sektorun payına düşür. Hesabat ilində Qobustanda 70 min 236 ton taxıl istehsal olunub ki, bu da rayon tarixində ən yüksək göstəricidir. İstehsal inişilki ilə müqayisədə 17 min ton və ya 31,8 faiz artıb. Vurğulanıb ki, ötən payızda rayonda əkinəyararlı 35815 hektar torpaq sahəsinin 31183 hektarında mühüm strateji məhsul olan taxıl əkilib.

Məruzə və çıxışlarda aqrar sektorun aparıcı sahələrindən olan heyvandarlıqda qazanılan uğurlardan, mal-qaranın cins tərkibinin süni mayalandırma yolu ilə yaxşılaşdırılması istiqamətində görülən işlərdən bəhs olunub. Habelə, əhalinin normal və fasiləsiz elektrik enerjisi, təbii qazla təmin olunması ilə bağlı xeyli işlərin görüldüyü, əhalinin 96 faizinin “mavi yanacaq”la tam təmin edildiyi bildirilib. Su təchizatı, yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən də söz açılıb.

Hesabat yığıncağında cari ildə rayon iqtisadiyyatının dinamik inkişafı, sosialyönümlü layihələrin reallaşdırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində görüləcək işlərdən, qarşıda duran vəzifələrdən də ətraflı danışılıb.

Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının yekun ili olan 2018-ci il İsmayıllı rayonu üçün də uğurlu olub. Belə ki, rayonda faktiki qiymətlərlə 257 milyon 554 min manat məbləğində ümumi məhsul istehsal olunub ki, bu da inişilki ilə müqayisədə 19 milyon 248 min manat çoxdur. Əsas kapitala 91 milyon 714 min manat və ya əvvəlki ildəkindən 6,7 faiz çox investisiya qoyulub. 2018-ci ildə rayonda 1095 yeni iş yeri açılıb ki, bunun da 815-i daimidir. Bu məlumatlar rayonda 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr edilən hesabat yığıncağında səsləndirilib. Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov məruzəsində 2018-ci ilin İsmayıllı rayonu üçün yaddaqalan hadisələrlə zəngin olduğunu bildirib. Vurğulayıb ki, keçən il avqustun 25-26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın İsmayıllıya tarixi səfərləri, bölgənin sosial-iqtisadi inkişafına təkan verən bir sıra istehsal, infrastruktur və sosial layihələrin açılışında iştirak etmələri sakinlər tərəfindən böyük razılıqla qarşılanıb. Dövlətimizin başçısı və birinci xanım Keyvəndi kəndinin ərazisində “AZZA AGRO” MMC-nin layihəsi olan müasir heyvandarlıq kompleksinin, “Azərxalça” ASC-nin İsmayıllı filialının, İsmayıllı şəhərində yenidənqurmadan sonra istifadəyə verilən 110/35/10 kilovoltluq yarımstansiyanın, Kürdmaşı kəndi ərazisində “Buta Qrup” MMC tərəfindən yaradılan aqroparkın, Kürdmaşı-Kəlbənd-Girk, Keyvəndi-Bəhliyan və Dəmirçi-Lahıc avtomobil yollarının, Lahıc qəsəbəsində yeni inşa olunan 400 şagird yerlik tam orta məktəb binasının açılışında və qəsəbəyə təbii qazın verilməsi mərasimində iştirak ediblər.

Hesabat məruzəsində, eləcə də çıxışlarda rayonda sənayenin inkişafı istiqamətində ardıcıl tədbirlər görüldüyü diqqətə çatdırılıb. Qeyd olunub ki, son illərdə velosiped istehsalı zavodunun, İsmayıllı tikiş fabrikinin, dam örtükləri istehsalı müəssisəsinin, Göyçay çayı üzərində su elektrik stansiyalarının, “Azərxalça” ASC-nin İsmayıllı filialının, özəl sektor tərəfindən kiçik emal müəssisələrinin istifadəyə verilməsi nəticəsində keçən il 9 milyon 141 min manatlıq sənaye məhsulu istehsal edilib. Bu isə əvvəlki illə müqayisədə 2 milyon 252 min manat çoxdur.

Bildirilib ki, rayonda iqtisadiyyatın əsasını aqrar sahə təşkil edir və ümumi məhsul istehsalının 37 faizdən çoxu bu sahənin payına düşüb. Keçən il dənli və dənli paxlalı bitkilər əkilən 30015,5 hektar sahədən 104 min 796 ton məhsul istehsal edilib, dəmyə şəraitdə məhsuldarlıq 34,8 sentner olub ki, bu da respublika üzrə yüksək göstəricidir. Hesabat ilində 22 hektar tütün sahəsindən 41,7 ton qurudulmuş tütün istehsal olunub. Bu göstərici inişilkindən 14,6 ton çoxdur. Habelə, 885 hektardan əvvəlki ildəkindən 72 ton çox olmaqla 10415 ton kartof, eləcə də 1013 hektar üzüm bağından 4127 ton, 851 ton meyvə bağından 8818 ton və digər məhsullar istehsal olunub. Keçən il 977,3 hektarda yeni fındıq bağı, 104,3 hektarda intensiv meyvə bağı, 22,8 hektarda filloksera zərərvericisinə davamlı yeni üzüm bağı salınıb.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlıqda da uğurlu nəticələr qazanılıb.

Hesabat yığıncağında habelə yol infrastrukturunun yaxşılaşdırılması, yaşayış məntəqələrinin qazlaşdırılması, su təchizatı ilə əlaqədar həyata keçirilən layihələrdən, təhsildə qazanılan uğurlardan və qarşıda duran konkret vəzifələrdən də danışılıb.

**Nardar BAYRAMLI**

# Radikal ünsürlər növbəti dəfə fiaskoya uğradılar

*Əli Kərimli və digər antimilli ünsürlərin xalq tərəfindən dəstəklənmədiyi Xocalı faciəsinin ildönümü ilə əlaqədar keçirilən ümumxalq yürüşündə bir daha sübut olundu*

Məlumdur ki, radikal müxalifət düşərgəsi addımbaşı siyasi şou düzəltmək və bundan da dividend qazanmaq üçün fürsət axtarışındadır. Antiazərbaycançı mərkəzlərlə işbirliyində olan radikal ünsürlər ölkəmizin əleyhinə yalan təbliğat aparan dairələrin sifarişləri əsasında şərböhtanlar yaymağa çalışır, hətta xalqımızın mənəvi dəyərlərinə belə hörmət göstərmirlər. Belə ki, cəmiyyət arasında heç bir dəstəyi olmayan, yalnız sosial şəbəkələrdə yalançı trollar vasitəsilə özündən “müxalifət partiyası” görüntüsü yaratmağa çalışan radikal ünsürlər milli dəyərlərimizi gözdən salmağa çalışdıqları kimi, xalqın hüznündən, hətta Xocalı soyqırımının ildönümü ilə bağlı ziyarətdən belə özlərinin “siyasi piar”ları üçün istifadə etməyə cəhd göstərirlər. Bununla da AXCP sədri Əli Kərimli və digər radikal ünsürlər növbəti dəfə hansı simaya malik olduqlarını Azərbaycan cəmiyyətinə açıq şəkildə nümayiş etdirmiş olurlar.

Yeri gəlmişkən qeyd edək ki, Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı Prezident İlham Əliyevin iştirakı ilə keçirilən ümumxalq yürüşü öz möhtəşəmliyi ilə seçildi və xalqımızın ayrı-ayrı zümrələrindən olan yürüş iştirakçıları birmənalı şəkildə Azərbaycanın mövqeyini dünyaya nümayiş etdirdilər. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işləri dəstəklədiyini, ən əsası isə, ölkəmizdə vətəndaş birliyinin gücünü bir daha göstərdi. On minlərlə ziyarət iştirakçısı öz Liderinin, Prezidentinin arxasınca getdiyini, Azərbaycanın milli maraqlarının qorunmasında hər zaman dövlət başçısının yanında yer aldığını əyani şəkildə nümayiş etdirdi.

Bəs, görəsən, hər addımbaşı “on minlərlə” tərəfdarı, elektoratı olduğunu iddia edən, keçirdikləri mitinqlərdəki adamların sayını on dəfələrlə artırıb şişirtmə rəqəmlər ortaya atmağa çalışanlar nə üçün həmin ziyarət zamanı fiasko yaşadılar? Bir müddət əvvəl 20 Yanvar faciəsinin ildönümündə Şəhidlər xiyabanını ziyarət zamanı guya “on minlərlə” tərəfdarının onunla birgə ziyarətə buraxılmadığını iddia edən Əli Kərimlidən soruşmaq gərəkdir ki, görəsən, harda idi onun “tərəfdarları”? Niyə Əli Kərimli Xocalı soyqırımı abidəsini ziyarətə gedərkən ətrafında bu qədər az adam vardı? Cəmisi 5-10 nəfərlə bu ziyarətə gələn Ə.Kərimlinin “tərəfdarları”, “elektoratı” və ya partiyasının üzvləri, görəsən, hardadırlar? Ə.Kərimlinin danışdıqlarının elə sabun köpüyündən başqa bir şey olmadığı bir daha əyani şəkildə sübut olundu. Eləcə də bütün bunlar göstərir ki, Əli Kərimli, Cəmil Həsənli və digər radikal müxalifət başçılarının danışdıqları yalanlar və ictimaiyyətin çaşdırılmasına yönəlmiş ucuz təbliğat heç bir fayda vermir, xalq öz dövlətinə və liderinə sonsuz inam və etimad bəsləyir.

Bəli, radikal qrupların əsl iç üzü məhz belə məqamlarda bir daha aşkara çıxır. Xalqın dəstəyindən məhrum olan radikal ünsürlər nə qədər pafosa “güc versələr” də, heç bir uğur əldə edə bilmirlər. Çünki reallıq odur ki, bu gün xalqın milli maraqlarına, rifahının yüksəlişinə yönəlik siyasət həyata keçirən Azərbaycan iqtidarı sosial-iqtisadi problemlərin həlli istiqamətində davamlı fəaliyyət göstərir.

Təbii ki, gündə bir simaya düşən, özünə gündə bir ad götürən radikal qruplar da artıq fiaskoya uğradıqlarının fərqindədirlər. Bir sözlə, Ermənipərəst xarici dairələrin sifarişi ilə Azərbaycana qarşı olan planların alətinə çevrilmiş bu antimilli ünsürlərin əsl məqsədi və siması xalqımıza yaxşı bəllidir. Ona görə də bu antimilli ünsürlər xalqın nifrətini qazanıb və bundan sonra da onların “əldə etdikləri” sadəcə məğlubiyyət olacaq.

**Pərviz SADAYOĞLU**

# “Bakcell” və INNOLAND Azərbaycanın ilk blokçeyn hackathon yarışmasını elan edir



Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi “Bakcell” şirkəti, İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi və Waves Platforması Bakı şəhərində keçiriləcək “Blokçeyn inteqrasiyası üzrə hackathon” yarışması barədə məlumat sessiyası keçirib.

Tədbir zamanı 8-9 mart tarixlərində INNOLAND mərkəzində keçiriləcək “Blokçeyn inteqrasiyası üzrə hackathon” yarışmasında iştirak etmək istəyən startapçı və developerlərə yarışma haqqında ətraflı məlumat verilib. Blokçeyn sahəsində Azərbaycanda ilk dəfə keçiriləcək bu hackathon sayəsində yerli startap və developerlər bu texnologiyadan öz layihələrində daha geniş şəkildə istifadənin yollarını öyrənəcəklər. Yarış iştirakçıları blokçeyn ilə token əməliyyatları üzrə mərkəzləşdirilməmiş qlobal platforma olan Waves Platformasından istifadə edərək müxtəlif tapşırıqları yerinə yetirəcəklər. Yarışmanın ümumi hədiyyə fondu 500 Waves tokendən ibarətdir. Qeyd edək ki, hal-hazırda 1 Waves tokeni təxminən 2,6 dollara bərabərdir.

Xatırladaq ki, keçən ilin sonunda “Bakcell” şirkəti ilə İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Bu tərəfdaşlıq Azərbaycanda startap mədəniyyətinin formalaşdırılması, bu hərəkatın geniş vüsət alması, innovativ təşəbbüskarlıq ruhunun və startap ekosisteminin inkişaf etdirilməsi, mövcud startapların dəstəklənməsi, ölkəmizdə innovativ təşəbbüslərin mövcud iqtisadi proseslərə tətbiqinə şəraitin yaradılması, müxtəlif kəşf və ixtiraların işlənib və hazırlanmasına maraqoyadıcı amilin formalaşdırılması və innovasiyaların inkişafına əsaslanan digər tədbirlərin görülməsi istiqamətində böyük əhəmiyyət kəsb edir.

İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan “Bakcell” şirkəti daim yerli startapların inkişafı, təhsil, elm və texnologiya sahəsində həyata keçirilən layihələrə öz dəstəyini əsirgəmir.

# “Nar” abunəçilərin gündəlik internetə olan tələbatını tam ödəməkdədir

Ölkənin ən gənc mobil operatoru olan “Nar” abunəçilərinin yüksəksürətli internetə olan gündəlik tələbatını ödəmək istiqamətində strategiyasını uğurla davam etdirir. Bu məqsədlə mobil operatorun təqdim etdiyi məhsullarla abunəçilər geniş və yüksəksürətli 4G şəbəkəsindən yalnız mobil telefonlarında deyil, ev və ofislərində də yararlana bilərlər. “Nar”ın yüksəksürətli internetə çıxış imkanı verən “Qutu”, “Nar Wi-Fi” və “Nar MiFi” məhsulları ölkənin telekommunikasiya bazarında böyük maraqla qarşılanıb. Belə ki, son 1 ayın nəticələrinə əsasən, “Qutu” istifadəçilərinin sayı 50%, “Nar Wi-Fi” istifadəçilərinin sayı 22%, “Nar MiFi” istifadəçilərinin sayı isə 40% artıb. Qeyd edək ki, “Nar”ın təqdim etdiyi hər 3 məhsul abunəçilərə innovativ xidmətlərdən yararlanaraq hər zaman onlayn olmağa və sərfəli qiymətə yüksəksürətli internetə çıxış əldə etməyə imkan verir.

“Nar”ın Kommersiya direktoru Qəhrəman Kazımovun sözlərinə görə, “Nar” təqdim etdiyi məhsul və həllərlə abunəçilərin gündəlik həyatlarına rahatlıq gətirən telekommunikasiya şirkətinə çevrilib: **“Nar” olaraq bu istiqamətdə təqdim etdiyimiz məhsullar müasir dövrün tələblərinə, abunəçilərin ehtiyac və istəklərinə uyğundur. Müştəriyönümlü brend strategiyamıza əsaslanaraq, “Nar” bundan sonra da təqdim etdiyi məhsul və həllərlə müştərilərinin gündəlik həyatlarında etibarlı tərəfdaş olmağı hədəfləyir”.**

Qeyd edək ki, “Nar Wi-Fi” yeni mənzilə, ofisə və ya bağ evinə köçənlər, yaxud evində ənənəvi internetə qoşula bilməyənlər üçün ən münasib məhsuldur. “Nar Wi-Fi” sayəsində 30-dan artıq cihaz eyni anda istənilən məkanda sərfəli qiymətə yüksəksürətli internetə (LTE / 4G) çıxış əldə edir.

Mobil operatorun təqdim etdiyi digər məhsul - “Nar MiFi” ilə abunəçi olduğu yerdən asılı olmayaraq, hər zaman onlayn olur və sərfəli qiymətə yüksəksürətli internetə çıxış əldə edir. “Nar MiFi” cihazını istifadəçi istənilən yerə apara və interneti dostları və yaxınları ilə asanlıqla paylaşa bilər.

“Nar”ın təqdim etdiyi “Qutu” isə Azərbaycanın rabitə bazarında ev üçün fiber-optik internet, rəqəmsal TV və mobil rabitə xidmətlərinin bir paketdə təqdim edildiyi ilk təklifdir. “Qutu” təklifi ilə “Nar” müştərilərə 50-si HD olmaqla 240-dan çox telekanal izləmək, fiber-optik texnologiya üzərindən yüksəksürətli internet, ölkədaxili danışıq dəqiqələri, mobil internet və SMS bonusları təqdim edir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU